# 7 gün ard-arda iş olacaq

## Baş nazirin imzaladığı qərarda Əmək Qanunvericilyi pozulmayıb



**Yeni il ərəfəsində gözlənilən hadisələrdən biri də 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni İl bayramı ilə əlaqədar qeyri-iş günləri ilə bağlı qərar verilməsidir.**

Son illərdə bayramlarla bağlı vətəndaşlara xeyli istirahət günləri hədiyyə edilir. Kimlər istirahət edir, kimlər işləməkdə davam edir, bu, ayrı mövzudur. İstirahət günlərinin yeri dəyişdirilməklə bayram günlərinin sayı artır. Əvəzində həftə sonları iş günü elan edilir. Burada məqsəd iş və istirahət günlərinin ardıcıllığını təmin etməkdir.

(səh.4)



## Əfqan Sadıqov ekstradisiya olunur

### Tbilisi məhkəməsi qərar verib

**Tbilisi Şəhər Məhkəməsi Əfqan Sadıqovun ekstradisiyası barədə qərar çıxarıb.**

Tbilisi Şəhər Məhkəməsinin hakimi Arsen Kalatozişvilinin sədrliyi ilə iclas keçirilib. İclasda "Azel TV"nin təsisçisi və baş redaktoru Əfqan Sadıqovun Azərbaycana ekstradisiyasına qərar verilib. (apa)

*Qeyd edək ki, Əfqan Sadıqov bu il avqustun 3-də Gürcüstanda həbs edilib.*


№ 218 (6219) 2024-cü il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 29 noyabr 2024-cü il (cümə)




# Uşaqlara sosial media yasağı gəlir

## Telefondan istifadə keçid dövrü kimi 14 yaş daha uyğun olar

**13 yaşından kiçik uşaqların sosial mediadan istifadəsinin qarşısını almaq üçün araşdırmaya başlanılıb.**

Hazırda Türkiyə Böyük Millət Məclisinin Uşaq Hüquqları Komissiyası bu məsələ üzərində işləyir. Dünyadakı mövcud təcrübələrə görə, 13 yaşından kiçik uşaqlar valideynlərinin icazəsi ilə telefondan istifadə edə bilər və ya yalnız günün müəyyən saatlarında onlara telefondan istifadə etməyə icazə verilir.

Bəzi sosial media platformaları da bu yaşda olan uşaqların girişini qadağan edir. Qardaş Türkiyədə də sosial media platformalarında uşaqları təhlükələrdən qorumaq üçün həll yolları axtarılır.

(səh.5)



# Ərdoğan: Baydenin atəşkəs barədə açıqlaması çox gecdir

**Türkiyə Qəzzada əmin-amanlıq və sülhün bərqərar olması üçün əlindən gələni etməkdən çəkinməyəcək.**

APA-nın Türkiyə müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Oman sultanı Heysəm bin Tariq bin Teymur Əl Səidlə Ankarada keçirdiyi mətbuat konfransı zamanı bildirib. O, ABŞ prezidenti Co Baydenin Qəzzada atəşkəs üçün yeni təşəbbüs irəli sürəcəyinə dair açıqlamasının çox gec, lakin mühüm addım olduğunu da vurğulayıb.

# Polşa liderinin "binokl diplomatiyası" etiraz doğurur

## Elşad Mirbəşiroğlu: "Anjey Dudanın COP29-dan sonra Ermənistana getməsi sanki İrəvanın könlünü almaq məqsədi güdür"



**Polşanın Azərbaycandakı müvəqqəti işlər vəkili Mixal Qreçilo Xarici İşlər Nazirliyinə çağırılıb.**

Görüş zamanı, Azərbaycan tərəfinin xəbərdarlıqlarına baxmayaraq, Polşa Prezidenti Anjey Dudanın Ermənistan-Azərbaycan sərhəd bölgəsinə, hələ də Ermənistanın işğalı altında olan Kərki kəndinə yaxın əraziyə səfər edərək, Avropa İttifaqının Ermənistandakı Missiyası ilə birgə Azərbaycan əleyhinə təbliğatda iştirakına etiraz bildirilib. Sözügedən missiyanın regional sabitlik, habelə Azərbaycanla Ermənistan arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan edilmiş məqsədlərinə zidd olaraq, Azərbaycan əleyhinə alət kimi geniş şəkildə sui-istifadə olunduğu xatırlanıb.

(səh.2)

# Ermənistanı yeni müharibəyə hazırlayırlar

## Ermənipərəst dairələrin silah-sursat tədarükü Cənubi Qafqazda yeni müharibə mesajı verir



**Ermənistanda revanşizm əhvali-ruhiyyəsi artmaqdadır.**

Son günlər Fransanın təhriki ilə Ermənistanın sürətlə silahlanması, Hindistandan alınan raketlər, Yunanıstanın "S 300" raket komplekslərini Ermənistana vermək niyyəti ilə bağlı xəbərlər, yeni müharibəyə hazırlıq görülməsi ehtimalları da revanşizmin güclənməsinin bariz əlamətləridir.

Ermənistanın arxasında duran Fransa, həmçinin Avropa İttifaqı aydın görür ki, Ukrayna cəbhəsində istədiklərinə nail ola bilmirlər, vəziyyət gündən-günə pisləşir, Rusiya isə irəliləyir. Buna görə də Rusiyanın diqqətini başqa səmtə yönəltmək və onun sərhədlərinə yaxın yeni münaqişə ocağı yaratmaqla qüvvəsini bölməyə çalışırlar. Ermənistanın yeni müharibə avantürası Qərbin növbəti planıdır. Burada Ermənistan hakimiyyəti ilə Qərbin maraqları üst-üstə düşür. Avropa İttifaqının "müşahidə missiyası"nın Azərbaycan barədə kəşfiyyat məlumatları toplayaraq Ermənistana ötürməsi də İrəvanı cəsarətləndirir.

(səh.3)

# Fransa bütün əxlaq normalarını aşır

## "ArteTV" telekanalının Azərbaycanla bağlı yayımladığı "sənədli film" Makron hakimiyyətinin sifarişi ilə hazırlanıb



**Fransanın "Arte.TV" telekanalı Azərbaycan haqqında obyektivlikdən kənar, heç bir əxlaq normasına və insanlığa sığmayan, saxta, riyakar "sənədli film" çəkib.**

"Ermənistan: Hadisələrin mərkəzində" adlı başdan-başa böhtan olan "sənədli film"in bir hissəsi 90-cı illərdə Birinci Qarabağ müharibəsi zamanı ermənilərin guya "deportasiya"sına həsr olunub.

(səh.4)



# Atəşkəs "kövrək" razılaşmadır

## Netanyahunun üstündə müəyyən bir basqı hiss olunur

**İsrail ordusunun sözçüsü Daniel Haqari deyib ki, Hizbullah İranın etibarlı qüvvəsidir və İslam Respublikası onu gücləndirmək üçün çoxlu maliyyə, silah və insan resursları yatırıb.**

Daniel Haqarinin sözlərinə görə, İran İsrailin sərhədlərinə yaxın ərazidə strateji sərvətini itirib. Politoloq Natiq Miri "Şərq" ə bildirib ki, Hizbullah İranın proksi qüvvələridir:

"Sözügedən proksi qüvvələr hər zaman İsrailə qarşı təzyiq mexanizmi kimi istifadə olunur. İran bunu uzun yardım və maliyyələr kontekstində həll edib. Ancaq indiki vəziyyətdə Hizbullah başsızlaşdırılıb.

(səh.5)

# Saxta pul dövriyyəsi ilə məşğul olan şəxslər saxlanılıb




**Hacıqabulda saxta pul dövriyyəsi ilə məşğul olan şəxslər saxlanılıb.**

Bu barədə DİN-in Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, Hacıqabul Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat tədbirləri ilə rayon ərazisində saxta pulların dövriyyəsində şübhəli bilinən əvvəllər məhkum olunmuş Eldar Eynullayev və Nicat Cavadov saxlanılıblar. Həmin şəxslərin idarə etdiyi avtomobilə keçirilən baxış zamanı 1 ədəd 20 manatlıq və 33 ədəd 10 manatlıq olmaqla 350 manat saxta pul, eləcə də narkotik vasitə olan marixuana və metamfetamin aşkarlanıb. Araşdırmalarla saxlanılan şəxslərin rayon ərazisində yerləşən bir neçə marketə saxta pul əskinasları verməyə cəhd etdikləri müəyyən edilib.

Faktla əlaqədar Hacıqabul RPŞ-də cinayət işi açılıb, saxlanılan şəxslər barəsində həbs qətimkan tədbiri seçilib. E.Eynullayevin və N.Cavadovun digər analoji faktlarda iştirakının olub-olmaması araşdırılır.

# Bakıda itkin düşən 13 yaşlı oğlan tapılıb



**Bakıda itkin düşən 13 yaşlı oğlan tapılıb.**

Hadisə paytaxtın Suraxanı rayonunda baş verib.

Belə ki, 2011-ci il təvəllüdlü K.A. yaşadığı evdən çıxaraq geri dönməyib.

DİN-in Mətbuat xidmətindən bildirilib ki, Sabunçu Rayon Polis İdarəsinin 15-ci Polis Bölməsinin əməkdaşları tərəfindən keçirilən axtarış tədbirləri nəticəsində itkin düşmüş 13 yaşlı K.A. tapılaraq ailəsinə təhvil verilib.



# Ankara Təl-Əvivin regionda aktivliyinin fərqindədir

## Türkiyə ordusu yanvara qədər Suriyada kürd qruplara zərbə vuraraq gücünü artırmağa çalışacaq

(səh.2)



# AĞ Partiya bələdiyyə seçkilərinə ciddi hazırlıq görmür

## Əhəd Məmmədli: "Bizdə vəziyyət ayrı cürdür"

(səh.5)



# Mərkəzi Nəbatat Bağının açılışı oldu

## Prezident İlham Əliyev burada yaradılan şəraitlə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Bakıda abadlıq, əsaslı yenidənqurma, tikinti və genişləndirmə işlərindən sonra Mərkəzi Nəbatat Bağının açılışında iştirak ediblər.**

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Mərkəzi Nəbatat Bağında yaradılan şəraitlə bağlı ətraflı məlumat verdi.

Qeyd edək ki, dövlətimizin başçısı Mərkəzi Nəbatat Bağında görülən işləri daim diqqət mərkəzində saxlayıb. Belə ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə - 2023-cü ilin iyul və bu ilin iyun ayında Mərkəzi Nəbatat Bağında görülən işlərlə tanış olmaları bunu bir daha təsdiq edir.

Bildirildi ki, əsaslı yenidənqurma və bərpa işləri nəticəsində Mərkəzi Nəbatat Bağının ərazisi 39 hektardan 45 hektara çatdırılıb. Bağda giriş kompleksi yaradılıb, müasir tələblərə, tikinti normalarına cavab verən yeni oranjereyalar, fəvvarə inşa edilib, mövcud oranjereyalar əsaslı təmir edilib. Burada xarici ölkələrdən gətirilmiş xüsusi şəraitdə bəslənən müxtəlif növdə nadir dekorativ ağaclar, kol və güllər əkilib.

Bağın ərazisində bitkilərin yetişdirilməsi məqsədilə 3 bloklu istixana, göl kompleksi və baxış meydançası inşa edilib.



Məlumat verildi ki, bağın ərazisində dördmərtəbəli yeni inzibati bina inşa edilib, aypara formalı ikimərtəbəli qədim inzibati binada isə əsaslı təmir-bərpa işləri aparılıb. Nəbatat Bağında piyadalar üçün 650 metr uzunluğunda müasir körpü tikilib və lift quraşdırılıb. Bağın ərazisində iki restoran fəaliyyət göstərəcək. Həmçinin bağda labirint formalı yaşıllıq zonası ilə yanaşı, uşaq-əyləncə meydançası, avtomobillər üçün parklanma yeri də yaradılıb. Köhnə giriş zonası öz tarixi üslubunda təmir edilib. Yeraltı su anbarları, nasosxanalar və qazanxanalar inşa edilib. Ərazi boyu hasar yenidən qurulub, piyada yolları salınıb, müasir oturacaqlar, işıqlandırma, yanğından mühafizə və videomüşahidə sistemləri quraşdırılıb, ümumi sahəsi 26 hektar olan yaşıllıqların suvarma sistemləri yenilənib.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları əsasında Mərkəzi Nəbatat Bağında həyata keçirilən abadlıq və yenidənqurma tədbirləri ölkəmizdə bitki biomüxtəlifliyinin qorunmasına və səmərəli istifadəsinə göstərilən xüsusi diqqətin bariz nümunəsidir.

Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun mühafizəsi məqsədilə 1934-cü ildə yaradılan Mərkəzi Nəbatat Bağı ekoloji təmizliyin qorunması, elmi araşdırma, tədris və maarifləndirmə baxımından mühüm əhəmiyyətə malikdir. Burada dünyanın müxtəlif iqlim zonalarından toplanan bitki kolleksiyaları yalnız onların mühafizəsi məqsədilə deyil, həm də ölkədə bu sahədə elmi tədqiqatların davamlı inkişafına xidmət edir.

Son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınıb, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulub. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır.

# Polşa liderinin "binokl diplomatiyası" etiraz doğurur

## Elşad Mirbəşiroğlu: "Anjey Dudanın COP29-dan sonra Ermənistana getməsi sanki İrəvanın könlünü almaq məqsədi güdür"

**Polşanın Azərbaycandakı müvəqqəti işlər vəkili Mixal Qreçilo Xarici İşlər Nazirliyinə çağırılıb. Görüş zamanı, Azərbaycan tərəfinin xəbərdarlıqlarına baxmayaraq, Polşa Prezidenti Anjey Dudanın Ermənistan-Azərbaycan sərhəd bölgəsinə, hələ də Ermənistanın işğalı altında olan Kərki kəndinə yaxın əraziyə səfər edərək, Avropa İttifaqının Ermənistandakı Missiyası ilə birgə Azərbaycan əleyhinə təbliğatda iştirakına etiraz bildirilib.**



Sözügedən missiyanın regional sabitlik, habelə Azərbaycanla Ermənistan arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan edilmiş məqsədlərinə zidd olaraq, Azərbaycan əleyhinə alət kimi geniş şəkildə suiistifadə olunduğu xatırlanıb. Bu təxribatın Azərbaycan-Polşa münasibətlərinə zidd olduğu, Azərbaycanın legitim təhlükəsizlik maraqlarına təsir edən bu kimi addımların çəkinməyin zəruri olduğu diqqətə çatdırılıb. Qeyd edək ki, Polşa rəhbəri Yerasxda (Arazdəyən) Avropa İttifaqının (Aİ) Ermənistandakı müşahidə missiyasının heyəti ilə görüşüb və missiya ilə birlikdə Azərbaycanla sərhəddə patrulda iştirak edib. Həmçinin Polşa Avropa İttifaqının Ermənistan-Azərbaycan sərhədindəki müşahidə missiyasının tərkibindəki nümayəndələrinin sayını artırmağı da düşünür. Ekspertlərə görə, Polşa liderinin tarixi Azərbaycan torpağı olan Qərbi Zəngəzura gələrək "binokl diplomatiyası"na qoşulması iki ölkə arasında tərəfdaşlığa ziddir. Hələ də hüquqi-normativ aktlarında qonşu dövlətə ərazi iddiası olan işğalçı dövlətin ambisiyalarının şirnikləşdirilməsidir. Ümumiyyətlə, Avropa İttifaqının keçmiş hərbçilərinin bölgədə qalması sülhə xidmət etmir və danışıqlarda Paşinyanı arxayınlaşdırır. Dudanın bu addımı ancaq və ancaq Fransa və Makronun yanındakı qüvvələrin maraqlarına cavab verir. Polşa lideri bunu bilirdi və xəbərdarlığa baxmayaraq, Zəngəzura getdi...

**Siyasi elmlər doktoru, professor Elşad Mirbəşiroğlu "Şərq"ə bildirib ki, belə hallar Avropa ölkələrinin liderləri tərəfindən tez-tez təkrarlanır. Professorun sözlərinə görə, bu da Qərbin ümumi yanaşmasının əlamətidir:** "Diqqət yetirsək, görərik ki, digər məsələlərlə bağlı da Fransa, Polşa kimi ölkələr Qərbin strategiyasına uyğun davranırlar. Qərbin indiki strategiyası da ondan ibarətdir ki, Ermənistan vasitəsilə Cənubi Qafqaz regionunda yenidən gərginlik yaratsın. Avropa İttifaqının "mülki missiyası" Ermənistanda artıq 2 ildir fəaliyyətdədir. Birinci missiyanın fəaliyyətinin nəticələrinin nədən ibarət olduğu barədə aydın təsəvvürlər olmadı. Buna baxmayaraq, ikinci missiya formalaşdırıldı və mandat verildi. Bildiyimiz kimi, bu missiyanın tərkibi daha da genişləndirilmiş oldu. Polşa Prezidenti A.Dudanın COP29 çərçivəsində Bakıda səfərdə olması, ardınca isə İrəvana yollanıb orada görüşlər keçirməsi bir sıra suallara səbəb olur və bəzi təsəvvürlər formalaşdırır. Birincisi, Dudanın məhz COP29 konfransında iştirakdan sonra Ermənistana getməsi sanki İrəvanın könlünü almaq məqsədi güdür. Yəni mesaj vermək istəyir ki, əvvəlcə Bakıya gedib, ardınca balans yaratmaq üçün İrəvana yollanıb. Yəqin ki, elə bu cürdür. Qərb Ermənistan üzərindən özünün hərbi-siyasi mövcudluğunu təmin etmək istəyir. Regionda yeni geosiyasi reallıqları Ermənistanı alət kimi istifadə edərək formalaşdırmağa çalışır".

**E.Mirbəşiroğlu qeyd edib ki, Avropa İttifaqının "mülki missiyası"na Polşanın qoşulma istəyi də təsadüf deyil:** "Çünki Polşa bütövlükdə Avropa İttifaqının və Qərbin davranışlarına uyğun mövqe sərgiləyir. Bunu hər zaman müşahidə edirik. Dudanın Aİ-nin "müşahidə missiyası"nı ziyarəti, "binokl diplomatiyası"nın iştirakçısına çevrilməsi qənaətlərimizi daha da möhkəmləndirir. Nəzərə alaq ki, Aİ-nin "mülki missiyası" bir çox hallarda Ermənistanın Azərbaycana qarşı törətmiş olduğu təxribatlara fərqli prizmadan yanaşma missiyasını da yerinə yetirir. Ermənistan hansı istiqamətlərdə təxribatlar törədirsə, Aİ-nin "mülki missiyası" da orada peyda olur. Onlar Ermənistanın törətdikləri təxribatları başqa konseptdə öz hesabatlarına daxil etmək niyyətlərini güdürlər. Bunu "Azərbaycanın törətdiyi təxribat" kimi təqdim etməyə çalışırlar. Missiyanı təşkil edən ölkələrin mövqeləri bizə çox yaxşı bəllidir. Onlar açıq ermənipərəst mövqe sərgiləyirlər. Ayrıca olaraq, yaxşı bilirik ki, Aİ-nin "mülki missiyası" həm də bütövlükdə region dövlətlərinə qarşı kəşfiyyat fəaliyyətini həyata keçirməkdədir. Polşa da bu prosesə qoşulursa, deməli, Cənubi Qafqaz regionunda kəşfiyyatçılıq fəaliyyətində öz iştirakını təmin etmək istəyir. O baxımdan Azərbaycanın reaksiyası çox təbiidir. Bu, Polşa üçün də bir siqnal olmalıdır ki, Azərbaycan proseslərə diqqətlə nəzər yetirir".

**İsmayıl Qocayev**

# ABŞ mətbuatı yazıb

## Fransanın və digər Avropa dövlətlərinin müstəmləkə istismarının ekoloji fəsadları gündəmdədir

**Tanınmış politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham baş qərargahı Nyu-Yorkda yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında dərc olunmuş "Müstəmləkə bölgələr üçün iqlim ədaləti vacib şərtdir" başlıqlı məqaləsində Fransa və digər Avropa dövlətlərinin müstəmləkə istismarının ekoloji fəsadlarından yazıb.**



Foreign Policy Association

RSS subscribe | Follow us on Twitter | Join us on Facebook

DEFENSE & SECURITY | THE EU | NUCLEAR | MEDIA AND FOREIGN POLICY | TRADE | U.S. FOREIGN POLICY | REGIONS | MORE TOPICS

Climate Justice an Imperative for Colonized Regions

by Rachel Avraham | on November 25th, 2024 | 0 Comments UNCATEGORIZED

CLIMATE JUSTICE = HUMAN JUSTICE

As we speak, millions of people who live in the Global South are experiencing the harsh reality of climate change, even though it was the Global North who disproportionately caused the problem. Since the Industrial Revolution in the late 1700s, human beings have been the primary drivers of changes in the Earth's climate. Countries that greatly benefitted from industrialization, e.g., America, the UK, Japan, Germany, etc., did so at the cost of pumping more and more carbon into the atmosphere. China and India are the only countries in the Global South, who have greatly contributed to climate change. Most of the main polluters are in the Global North.

Between 1850 and 2011, the United States and EU were responsible for 79% of climate-changing emissions. However, the countries expected to suffer the most from climate change are all in the Global South and are not top contributors to the problem. One of

Author Rachel Avraham

Rachel Avraham is the CEO of the Dona Gracia Center for Diplomacy and the editor of the Economic Peace Center, which was established by Ayoob Kara, who served as Israel's Communication, Cyber and Satellite Minister. For close to a decade, she has been an Israel-based journalist, specializing in radical Islam, abuses of human rights and minority rights, counter-terrorism, the Israeli-Palestinian conflict, Azerbaijan, Syria, Iran, and other issues of importance. Avraham is the author of "Women and Jihad: Debating Palestinian Female Suicide Bombings in the American, Israeli and Arab Media," a ground-breaking book endorsed by Former Israel Consul General Yitzchak Ben Gad and Israeli Communications Minister Ayoob Kara that discusses how the media exploits the life stories of Palestinian female terrorists in order to justify wanton acts of violence. Avraham has an MA in Middle Eastern Studies from Ben-Gurion University. She received her BA in Government and Politics with minors in Jewish Studies and Middle Eastern Studies from the University of Maryland at College Park.

Read all of Rachel Avraham's Posts

Azərtac xəbər verir ki, məqalədə ekoloji vəziyyətin fövqəladə hal alması məhz müstəmləkəçiliyin mirası olaraq səciyyələndirilib. Qlobal Cənubun torpağının və havasının Qlobal Şimalın zibilxanası kimi istifadə olunduğu göstərilib.

Diqqətə çatdırılıb ki, İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panel təşkilatı yarandığı otuz ildən artıq müddətdə ilk dəfə olaraq 2022-ci il üzrə hesabatında "müstəmləkəçilik" terminini qeyd edib. Yazıda iqlimşünaslıq sahəsinin aparıcı alimlərinin müstəmləkəçiliyin iqlim böhranında keçmiş və indiki amil olduğunu etiraf etdikləri də bildirilib. Vurğulanıb ki, dünyanın hər yerindən olan məmurlar və elm adamları artıq müstəmləkəçiliyin planetimizin istiləşməsi və onun çoxsaylı nəmətlərinin məhvində oynadığı mühüm rolu dərk edir. Müstəmləkəçiliyin zərərlərini aradan qaldırmadan ekoloji ədalətə nail olmaq qeyri-mümkündür.

Müəllif vaxtilə müharibə şəraitindən çıxmış Qarabağ bölgəsinə səfər edərkən erməni köçkünlərinin bölgədə necə ciddi ekoloji böhran yaratdığının şahidi olduğuna diqqət çəkib. Çirklənmiş, balıqsız çayları, kökündən qoparılmış ağacları, yandırılmış əkin sahələrini, minalarla əhatə olunmuş, dağıdılmış minlərlə evi və çuxurlarla dolu torpaq yolları gördüyünü yazıb: "Vəziyyət ekoloji baxımdan o qədər ciddi idi ki, bir vaxtlar gözəl ekosistemi ilə "Qara Bağ" kimi tanınan bölgə otuzillik erməni işğalından sonra "Qafqazın Xirosiması" adlandırıldı".

Yazıda Azərbaycanın Qarabağı yaşıl zona kimi bərpa etdiyi və müstəmləkəçiliyin dağıdıcı nəticələrinin, ətraf mühitə mənfi təsirlərinin şahidi kimi Qlobal Cənubun digər ölkələrini ruhlandırdığı qeyd olunub. Məqalənin sonunda müəllif diqqətçəkən açıqlama verib: "Həqiqətən də Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə erməni köçkün müstəmləkəçiliyi tarixin zibilliyinə atıldı. Digər müstəmləkəçi qüvvələr də tezliklə onun ardınca gedə bilər".

# "Araz-2024" birgə taktiki təlimi başa çatıb

**İran İslam Respublikasının Ərdəbil vilayətinin Aslanduz yaşayış məntəqəsi yaxınlığında Azərbaycan Ordusu Quru Qoşunlarının və İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) Quru Qoşunlarının xüsusi təyinatlılarının iştirakı ilə keçirilən "Araz - 2024" birgə taktiki təlimi başa çatıb.**



Müdafiə Nazirliyindən "Şərq"ə verilən xəbərə görə, təlimin əsas mərhələsində qeyri-qanuni silahlı qruplaşmaların yerlərinin, hərəkət istiqamətlərinin və hazırlıq vəziyyətlərinin müəyyənləşdirilməsi məqsədilə bölgə üzərində pilotsuz uçuş aparatları (PUA) tətbiq edilib, radio-elektron mübarizə və radio-elektron kəşfiyyat üzrə fəaliyyətlər icra olunub.

Şərti düşmənin müəyyən edilmiş mövqeləri sərrast artilleriya atəşi və PUA tətbiq olunması ilə məhv edilib. Həmçinin düşmənin canlı qüvvəsinin məhv edilməsi üzrə tapşırıqlar hərbi qulluqçular tərəfindən yüksək dəqiqliklə yerinə yetirilib.

Ümumilikdə təlimin gedişatı və hərbi qulluqçuların peşəkarlığı yüksək qiymətləndirilib.

Təlimin yekununda fərqlənən bir qrup hərbi qulluqçu təltif edilib.

**Suriyada 4 ildir dondurulmuş münaqişədən sonra cəbhə yenidən alovlanıb. İslamçı Heyət Təhrir əş-Şam (HTŞ) qruplaşması və Suriya Milli Ordusuna (SMO) mənsub sünni qruplar Başar Əsəd rejiminə qarşı ani hücuma başlayıb. HTŞ lideri Əbu Məhəmməd Əl Colani bildirib ki, hədəfləri Əsəd hökumətinin nəzarətində olan Hələb şəhəridir.**



O, hücumların paytaxt Dəməşq ələ keçirilənədək davam edəcəyini deyib. Əslində, məsələ nə Suriya

# Ankara Təl-Əvivin regionda aktivliyinin fərqindədir

## Türkiyə ordusu yanvara qədər Suriyada kürd qruplara zərbə vuraraq gücünü artırmağa çalışacaq

vətəndaş müharibəsi, nə də HTŞ və SMO-nun Əsədi devirmək istəməsidir. Məsələyə daha geniş rakursdan baxmaq lazımdır. Açar informasiya isə HTŞ və SMO-nun Türkiyə tərəfindən dəstəklənməsidir.

**Politoloq Turan Rzayev "Şərq"ə bildirib ki, Türkiyənin Suriyada əməliyyatlara başlayacağına dair iddialar var idi. Amma əməliyyatın zamanlaması diqqət çəkir. Ekspert diqqətə çatdırıb ki, Türkiyədən başqa bu gün Suriyada bir çox ölkənin marağı var:** "Üzdə görünən başlıca qüvvələr Rusiya, İran, İsrail, ABŞ və Qərbdir (daha çox Fransa). Əməliyyatın zamanlamasının həm də bu güclərin mövcud geosiyasi, regional və daxili vəziyyətləri ilə bağlı olduğunu demək olar. Hesab edirəm, Ankaranı hərəkətə gətirən ilk ciddi məqam ABŞ və kürd qruplaşmalarıdır. Baydenin hakimiyyəti müddətində ABŞ YPG-yə ciddi dəstək verib. Son illərdə İsrailin də dəstəyi ilə Türkiyədə aktivləşən kürd separatizmi Ankaranı narahat edir. Türkiyə öz ərazisində İraqın şimalındakı kimi defakto bir kürd subyektinin olmasını istəmir. Mümkündür ki, Ankara HTŞ və SMO əməliyyatları fonunda Hələbin şimalında kürd silahlılarının nəzarətində olan ərazilərdə əməliyyat keçirsin. Yəni HTŞ və SMO əməliyyatları həm taktiki diqqət dağıtmaq, həm də itki sayını azaltmaq üçün ön hücum ola bilər. Təbii ki, Ankaranı bu planı aktivləşdirməyə cəsarətləndirən başlıca faktor ABŞ-da hakimiyyətin dəyişdirilməsidir. Ankara Baydendən fərqli olaraq Trampın Yaxın Şərqə birbaşa müdaxilə ilə deyil, regional partnyorlar ilə nəzarət edəcəyinə ümid edir. Ehtimal ki, Türkiyə ordusu HTŞ və SMO ilə birlikdə ən azından yanvara qədər Suriyada həm kürd qruplara zərbə vurmaq, həm də Əsədin mövqelərini zəifləndərək gücünü artırmağa çalışacaq".

**Siyasi şərhçiyə görə, Ankara Təl-Əvivin regionda aktivliyinin fərqindədir:** "Xüsusilə Qəzzada HƏMAS-a, Livanda "Hizbullah"a qarşı əməliyyatların arealını genişləndirəcəyini, hətta Suriyaya sıçrayacağını bilir və dolayı yolla Türkiyə sərhədinə çatma ehtimalları Ankaranı narahat edir. İsrailin aktivləşməsi fonunda Türkiyə də Yaxın Şərqdəki mövqelərini qorumaq istəyir və buna görə Suriyada təsir gücünü artırmaq qərarı vermiş ola bilər. Təbii ki, önəmli məqamlardan biri də Rusiya və hazırkı vəziyyətidir. Ankara Moskvanın başının Ukraynaya qarışdığının fərqindədir. Türkiyə rəhbərliyi Rusiyanın ciddi şəkildə sıxışdırıldığını görür və Suriyaya diqqət ayıra bilməyəcəyini anlayır. Təbii ki, bu, 5 ildir davam edən Türkiyə-Rusiya dialoqunu sarsıda bilər. Amma görünür, Qara dənizə giriş-çıxış "kartı"nı əlində saxlayan Türkiyə Rusiyanın buna getməyəcəyini düşünür.

Əməliyyatların nəticəsinin necə olacağını öncədən demək çətindir, lakin bir gerçək var ki, ikinci Hələb döyüşləri ən az birincisi qədər qanlı olacaq. Çünki Hələb şəhərinin 2016-cı ilin sonunda hökumət qüvvələri tərəfindən yenidən ələ keçirilməsi vətəndaş müharibəsinin taleyini dəyişmiş və Əsədin mövqeyini gücləndirmişdi. Yəni Əsəd Hələbi itirməmək üçün bütün qüvvəsini səfərbər edə bilər. Çünki Hələbi itirmək Dəməşqi itirmək deməkdir".

**İsmayıl**



# Ermənistanı yeni müharibəyə hazırlayırlar

## Ermənipərəst dairələrin silah-sursat tədarükü Cənubi Qafqazda yeni müharibə mesajı verir

**Ermənistanda revanşizm əhvali-ruhiyyəsi artmaqdadır. Son günlər Fransanın təhriki ilə Ermənistanın sürətlə silahlanması, Hindistandan alınan raketlər, Yunanıstanın "S 300" raket komplekslərini Ermənistana vermək niyyəti ilə bağlı xəbərlər, yeni müharibəyə hazırlıq görülməsi ehtimalları da revanşizmin güclənməsinin bariz əlamətləridir.**

Ermənistanın arxasında duran Fransa, həmçinin Avropa İttifaqı aydın görür ki, Ukrayna cəbhəsində istədiklərinə nail ola bilmirlər, vəziyyət gündən-günə pisləşir, Rusiya isə irəliləyir. Buna görə də Rusiyanın diqqətini başqa səmtə yönəltmək və onun sərhədlərinə yaxın yeni münaqişə ocağı yaratmaqla qüvvəsini bölməyə çalışırlar. Ermənistanın yeni müharibə avantürası Qərbin növbəti planıdır. Burada Ermənistan hakimiyyəti ilə Qərbin maraqları üst-üstə düşür. Avropa İttifaqının "müşahidə missiyası"nın Azərbaycan barədə kəşfiyyat məlumatları toplayaraq Ermənistana ötürməsi də İrəvanı cəsarətləndirir. Nəticə etibarı ilə Qərbin təhriki və dəstəyi ilə Ermənistanın silahlanması Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə, kövrək sülhün pozulmasına və yeni müharibənin başlanmasına gətirib çıxarır. Bununla paralel Nikol Paşinyanın reytinqi də getdikcə aşağı düşür. Görünür, məhz bunun qarşısını almaq üçün onun yeniliyə ehtiyacı yaranıb. Ermənistan hakimiyyəti bu "yeniliyi" hərbi əməliyyatlarda və Azərbaycan üzərində kiçik də olsa "qələbə" qazanmaqda görür.

**Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov deyib ki, Azərbaycan 2020-ci ilin 44 günlük Vətən müharibəsində qalib gələrək erməni faşizminə ağır zərbə vursa da, bu gün də ölkəmizə qarşı müəyyən təhdidlər davam edir. Ekspert vurğulayıb ki, Ermənistanla yanaşı bəzi məkrli qüvvələr, Fransa kimi dövlətlər Cənubi Qafqazda yeni qarşıdurmaların baş verməsində maraqlıdır:** "Bu məqsədlə anti-Azərbaycan qüvvələri, imperialist güclər Ermənistana çoxlu silah-sursat, raket sistemləri verir, onu hər vasitə ilə müharibəyə hazırlamağa çalışırlar. Ermənistan Fransa ilə yanaşı, Hindistan və digər dövlətlərdən də müəyyən texnikalar alır. Bütün bunlar İrəvanın sülhdən daha çox müharibə haqqında düşündüyünü göstərir. Çünki sülh istəyən bir dövlətin davamlı və sürətlə silahlanması məntiqsizdir".

**Polkovnik qeyd edib ki, belə olan təqdirdə Azərbaycan da öz müdafiə xərclərini artırmağa, öz təhlükəsizliyini etibarlı şəkildə təmin etmək üçün hərbi baxımdan güclənməyə məcburdur:** "Vətən müharibəsi göstərdi ki, müasir dünyamızda gücün alternativi yoxdur. Öz təhlükəsizliyini, ərazi bütövlüyünü təmin etmək istəyən hər bir dövlət beynəlxalq hüquqa deyil, öz hərbi qüdrətinə etibar etməlidir. Bu səbəbdən də Azərbaycan öz müdafiə xərclərini günün tələbini və regiondakı reallıqları nəzərə almaqla artırmaqda, Silahlı Qüvvələrin peşəkarlığını, maddi-texniki təchizatını yüksəltməkdədir. Ermənistan iqtisadi baxımdan acınacaqlı vəziyyətdə olduğu üçün öz silahlanmasını daha çox xaricdən toplanan ianələrin, heç vaxt ödəyə bilməyəcəyi kreditlərin hesabına təmin etməyə çalışır. Fransa və bəzi dövlətlər isə müəyyən məqamlarda regionla bağlı öz maraqlarını təmin etmək üçün ona müəyyən silahları təmənnasız verir ki, bu da ermənipərəst dairələrin Cənubi Qafqazda yeni bir qarşıdurmaya nə dərəcədə ehtiyac duyduğunu göstərir. Lakin həm Ermənistan, həm də ona dəstək verən dövlətlər bilməlidir ki, yeni bir qarşıdurma Ermənistan üçün yeni darmadağından başqa bir şey olmayacaq. Bu isə nəticə etibarı ilə Ermənistan dövlətinin sonu ola bilər".

**İsmayıl**

# İran rəsmisi Seyidrza Salehi inciməsin...

## Azərbaycan xalqı İran hakimiyyətinin saxta "müsbət zəmin"lərinə inanmır



**İranın mədəni irs, turizm və sənətkarlıq naziri Seyidrza Salehi Əmiri bildirib ki, Bakıya səfəri zamanı Azərbaycanın baş naziri və turizm naziri ilə görüşlər keçirib. Əmiri görüş çərçivəsində əməkdaşlıq və münasibətlərin normallaşdırılması üçün müsbət zəmin hazırlandığını deyib.**

Nazir vurğulayıb ki, Qafqazda Azərbaycan bizim ilk hədəfimizdir. Ancaq təəssüf ki, Azərbaycanın Tehrandakı səfirliyində baş verən insident səbəbindən iki ölkə arasındakı münasibətlərdə problem yaranıb: "İran hökumətinin səyləri bu əlaqələri yenidən qurmaq və iki ölkənin xalqları arasında münasibətləri bərpa etməkdir. Quru sərhədlərdə, xüsusilə də Naxçıvanla sərhəddə, eləcə də azərbaycanlı turistlərin Məşhəd, Təbriz şəhərlərinə səfəri üçün hava zonasında müxtəlif məsələlərlə bağlı razılaşmalar əldə olunub". İranlı nazir Azərbaycanın Tehrandakı səfirliyinin yenidən fəaliyyətini bərpa etməsinə toxunaraq, yaxın vaxtlarda İran səfirinin də Bakıya göndəriləcəyini qeyd edib: "İki qardaş, dost və müsəlman xalq olan Azərbaycanla İranın münasibətləri normallaşmalıdır".

**Politoloq Azər Qasımov "Şərq"ə deyib ki, İran rəsmisinin münasibətlərin normallaşması üçün "müsbət zəmin" anlayışının hansı zərurətdən yarandığı maraqlı məsələdir. Ekspert vurğulayıb ki, əvvəla, iki ölkə arasında "müsbət zəmin hansı səbəbdən yoxdur" sualı ortalığa çıxır:** "Azərbaycan və İran dost deyil, qardaş ölkələr olmalı idi. Amma İran rəsmisi hansısa normallaşmanın müsbət zəminlərindən danışır. İran hakimiyyəti iki ölkənin niyə indiki duruma gəldiyinin səbəbini, günahını özündə axtarmalıdır. Azərbaycan İrana nə edib ki, Tehran rejimi Azərbaycanı Ermənistanın ayağına verir, açıq şəkildə ermənipərəst mövqe nümayiş etdirir? İran rəsmisi inciməsin, amma Azərbaycan xalqı İran hakimiyyətinin saxta "müsbət zəmin"lərinə inanmır. Rəsmi Bakı isə İrandakı azərbaycanlıların gələcəyi naminə Tehran hakimiyyətinin normallaşma mesajlarına müsbət reaksiya verir. İran hakimiyyəti Azərbaycana qarşı etdiyi hərəkətləri ciddi götür-qoy etməlidir. Normallaşma üçün müsbət zəmin anlayışını həqiqi və səmimi məcraya yönəltmək üzərində düşünməlidir".

**İsmayıl Qocayev**



# Ermənistana ötürülənlər hücum silahlarıdır

## Fransa, Yunanıstan, Hindistan və İran Ermənistanı revanşa həvəsləndirir

**Ermənistanın İkinci Qarabağ müharibəsindəki məğlubiyyətindən sonra revanşizm əhvali-ruhiyyəsi, başda Fransa olmaqla bəzi dövlətlərin təhriki ilə daha da artmaqdadır.**

Ermənistana Fransa tərəfindən silahların verilməsi, Hindistandan yeni silahların alınması, Yunanıstanın S-300 raket komplekslərini vermək niyyəti Cənubi Qafqazda kövrək sülhün pozulması ehtimalını gücləndirir. Bəzi politoloqların fikrincə, Paşinyanın reytinqinin getdikcə aşağı düşməsi onu yeniliklərə məcbur edir. Ermənistan hakimiyyəti bu yeniliyi hərbi əməliyyatlarda, Azərbaycan üzərində kiçik də olsa qələbə qazanmaqda görür.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən politoloq Oqtay Qasımov bildirir ki, Ermənistan rəhbərliyi hər dəfə sülhdən danışandan sonra adətən sərhəddə yeni təxribatlar və sürətlə silahlanma müşahidə olunur:**

"Xüsusilə də bu, son bir ildə intensiv xarakter alıb. Rəsmi İrəvan 2024-cü ildə, xüsusilə COP29 müddətində, sülhə hazır olduqları ilə bağlı bəyanatlar səsləndirirdi. Lakin biz 5 apreldəki Brüssel üçtərəfli görüşündən sonra Ermənistanın silahlandırıldığını görürük. Qarşı tərəf silahların müdafiə üçün alındığını iddia etsə də, bunlar əsasən hücum silahlarıdır. Fransa, Yunanıstan, Hindistan və cənub qonşumuz İran Ermənistanı revanşa həvəsləndirir. Onlar Cənubi Qafqazda hərbi balansı dəyişərək regionda yeni qarşıdurmalar yaratmağa çalışırlar".

**Ekspert əlavə edib ki, Qərb dövlətləri rəsmilərinin intensiv şəkildə Ermənistana səfərləri, son olaraq Polşa prezidentinin səfəri zamanı sərhəd bölgəsinə gələrək ərazilərimizi izləməsi, bu prosesləri dəstəkləyir:** "Hazırda fransızların yardımı ilə sərhədlərdə istehkam sistemləri, tunellər və müxtəlif hərbi obyektlər qurulmaqdadır. Ermənistan və onun havadarları bu addımları atmaqla Azərbaycana təzyiq göstərməyə çalışırlar. Son baş verənlər eskalasiya riskinin artacağını göstərir. Sözügedən hadislər, əlbəttə, tərəflər arasındakı sülh proseslərinə ciddi zərbə vurur. Əgər vəziyyət Azərbaycan üçün təhdid yaratsa, təbii ki, rəsmi Bakı bu məsələdə ciddi tədbirlər görəcək".

**Yusif Sultanoğlu**

# Saakaşvili ən yaxşı halda nazir və ya deputat ola bilər

## Keçmiş prezident həbsdən çıxsa, onun siyasətində xüsusi bir yenilik olmayacaq



**"Gürcü arzusu - Demokratik Gürcüstan" Partiyasının baş katibi, Tbilisi meri Kaxa Kaladze Gürcüstanın keçmiş lideri Mixail Saakaşvili haqqında fikirlər səsləndirib. O bildirib ki, Mixail Saakaşviliyə qarşı başqa cinayət işləri açıldığı üçün indiki Prezident Salome Zurabişvili əfv etsə də, həbsxanadan çıxa bilməyəcək.**

Bəs, Saakaşvilinin həbsdən çıxması nə qədər realdır? Keçmiş prezident həbsdən çıxarsa, yenidən siyasətə qayıda bilərmi?

**Gürcüstandakı siyasi təlatümləri "Şərq"ə şərh edən politoloq Turan Rzayev bildirib ki, Saakaşvilinin həbsxanadan çıxması real deyil:**

"Bu baş versə də, o, illərdir ki, siyasətdən uzaqdır. Digər tərəfdən, Gürcüstanda onun tərəfdarları qədər əleyhdarları da çoxdur. Nəzərə almaq lazımdır ki, Saakaşvili hakimiyyətə göndərilmiş bir şəxsdir. O, Gürcüstan tarixində 2008-ci il olaylarıyla, dövləti Rusiya ilə müharibəyə sürükləyən bir şəxs kimi yadda qalıb. Ümumiyyətlə, bəzi prezidentlərin xarici, bəzilərinin isə daxili siyasətləri uğurlu olur və tarixdə bu cür lider kimi xatırlanır. Saakaşvili də daxili siyasətdə üstünlüyü və müsbət tərəfləri ilə yadda qalıb. Xüsusilə də, Gürcüstanda korrupsiyanı böyük ölçüdə dağıtması və keçmiş hakimlərdən qalan bürokratik əngəlləri sıradan çıxarması, Qərb dəyərləri əsasında sistem formalaşdırmağa çalışması, ölkədə mafiyanın kökünü kəsməsi kimi məsələlər müsbət idi. Amma 2008-ci il olaylarını, yəni Abxaziya və Cənubi Osetiyada separatçıların tam müstəqil şəkildə fəaliyyətinə gətirib çıxaracaq prosesləri Saakaşvili başladıb. Eyni zamanda Rusiyanın ölkəni cəmi bir neçə saat ərzində işğal etməsinə də məhz o səbəb oldu. Bütün bunları gürcü xalqı da unutmayıb. Biz hələ Gürcüstan vətəndaşı olmaya-olmaya bunları biliriksə, sadə gürcü vətəndaşları da bunu bilir. Onlar keçmiş liderin hakimiyyətə gəlməsinə icazə verməzlər".

**Politoloqun fikrincə, Saakaşvili həbsdən çıxsa və hakimiyyətə gəlsə də, onun siyasətində xüsusi bir yenilik olmayacaq:**

"O, Qərbə inteqrasiya prosesini davam etdirəcək. Bu da Mişanın yenidən hakimiyyətdən getməsinə gətirib çıxara bilər. İllərlə ömrünü və karyerasını anti-Rusiya çıxışları ilə zəngin edən bir şəxsin hakimiyyətə gəlib, ruspərəst olmasını və ya balans yaradacağını gözləmək sadəlövhlük olardı. Bu baxımdan da onun köhnə siyasətindən geri duracağını demək çətindir. Bütün hallarda Saakaşvili kimi liderlər Qərbə meyillidirlər. O, əslində, prezident kimi yaxşı olmayıb. Çünki ölkə daxilindəki problemləri başqa hakimiyyətlər və ya instansiyalar həll edə bilər. Amma Baş nazirin xarici siyasətdə yanlış etmək kimi bir seçimi yoxdur. Saakaşvili isə bunu etmiş şəxsdir. O, ən yaxşı halda nazir və ya deputat ola bilər. Yəni bu tip şəxslərin ölkə başçısı olması təhlükəlidir. Gürcüstanın başına gələnlər də bunun real sübutudur".

**Analitik onu da qeyd edib ki, ümumiyyətlə, Cənubi Qafqaz regionunda neytrallıq önəmlidir:**

"3 ölkə - Azərbaycan, Gürcüstan və Ermənistan arasında yalnız Azərbaycan Rusiya və Qərb arasında balanslı siyasət yeridib, hər iki tərəfi də məmnun etməyi bacarır. Həmçinin sözügedən balans siyasətindən də öz münaqişələrini həll edən yeganə ölkədir. Ermənistan və Gürcüstan isə Rusiyadan üz döndərib Qərbə inteqrasiya edən ölkələrdir. Bu gün Gürcüstan səhvini düzəltməyə çalışır. Rusiya ilə münasibətlər tam normallaşmasa da, gərginlik azalıb. Tərəflər arasında soyuqluğun aradan qaldırılmasına çalışıla bilər. Ermənistan da son zamanlar münasibətlərə diqqət etməyə çalışır. Sanki Qərblə Rusiya arasında bir balans yaratmaq niyyətindədir".

**Aynur Babayeva**

# Fiziki şəxsləri də cəza gözləyir

## Tütün məhsullarının qaçaqmalçılığı beynəlxalq miqyasda bir problemdir



**Dövlət Gömrük Komitəsinin (DGK) Əməliyyat-İstintaq Baş İdarəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlər çərçivəsində Bakı şəhəri, Nəsimi rayonu ərazisində iki nəfər şəhər sakininə məxsus nəqliyyat vasitələrinə, həmçinin müvafiq məhkəmə qərarı əsasında istifadələrində olan qeyri-yaşayış sahəsinə baxış keçirilib.**

Bu barədə DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən bildirilib.

Baxış zamanı Azərbaycan Respublikasının aksiz markası ilə markalanmayan, ümumilikdə 210 000 ədəd siqaret aşkarlanıb.

**Tanınmış iqtisadçı-ekspert Razi Abbasbəyli "Şərq"ə söyləyib ki, aksiz markası olmayan tütün məhsullarının ticarət dövriyyəsi ilə bağlı bir sıra cəza tədbirləri mövcuddur:**

"Fiziki və hüquqi şəxslər üçün ayrı-ayrılıqda cəzalar nəzərdə tutulub. Əsasən maliyyə sanksiyaları tətbiq edilir. Qaçaqmalçılıq yolu ilə gətirilən böyük sayda siqaret və tütün məhsullarının qanunsuz olaraq aksiz markası olmadan dövriyyəsini təşkil etmə və pərakəndə satışına şərait yaratmağa görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində sərt cəzalar nəzərdə tutulub. Burada hətta orta və uzunmüddətli azadlıqdan məhrumetmə cəzası da mövcuddur. Yəni bu cəzalar həm müvafiq gömrük orqanları, həm də digər hüquq-mühafizə orqanları tərəfindən aşkarlanaraq tədbirlər görülə bilər. Dünyanın əksər ölkələrində qaçaqmalçılıqla mübarizə tədbirləri yüzdə yüz effekt vermir. Xüsusilə də tütün məhsullarının qaçaqmalçılığı beynəlxalq miqyasda mövcud olan bir problemdir. Azərbaycanda da bu problem mövcuddur. Azərbaycanın gömrük orqanları bu istiqamətdə mütəmadi olaraq tədbirlər həyata keçirir, qaçaqmal yolu ilə ölkəyə tütün məhsulları gətirilən zaman cəhdlərin qarşısı alınır. Buna baxmayaraq, problem dünyanın qarşılaşdığı beynəlxalq bir problemdir və bu problemlə bağlı olaraq Azərbaycan gömrük orqanları beynəlxalq təşkilatlarla, o cümlədən də ayrı-ayrılıqda ikitərəfli qarşılıqlı razılaşma yolu ilə, digər ölkələrin gömrük orqanları ilə əməkdaşlıq edirlər. Azərbaycana əsasən Əfqanıstan, İran, Türkmənistan, Qazaxıstan və daha çox Rusiya üzərindən aksiz markası olmadan qaçaqmal yolu ilə tütün məhsullarının gətirilməsinə cəhdlər olunur. Bu ölkələrdə gömrük sistemindəki neqativ halların çox olması, xüsusilə də İran, Əfqanıstan və Rusiyada rüşvət və korrupsiyanın mövcudluğu, eyni zamanda nəzarətin aşağı səviyyədə təşkili nəticə etibarilə də həmin ölkələrdən ikinci və hətta üçüncü ölkələrə aksiz markası olmadan qaçaqmal yolu ilə tütün məhsullarının daşınması prosesi həyata keçirilir. Bununla mübarizə tədbirləri aparılsa da, ilk onluqda olan ölkələrlə, təəssüf ki, Azərbaycan dəniz və quru sərhədləri ilə həmsərhəd ölkədir. Əfqanıstandan Yaxın və Orta Şərq üzərindən İrana, İrandan isə Azərbaycana daha çox bu istiqamətdə cəhdlər olur. Rusiya, Qazaxıstan və Türkmənistandan isə su yolu, dəniz yolu ilə Xəzər dənizi üzərindən magistral qaçaqmal tütün məhsullarının satışına cəhdlər göstərilir. Lakin bununla bağlı müvafiq olaraq mütəmadi tədbirlər həyata keçirilir və bu tədbirlər kifayət qədər effektivdir".

**Ekspertin sözlərinə görə, dünyanın hər yerində bu problem mövcuddur:**

"Əksər ölkələr, hətta Avropanın inkişaf etmiş ölkələrində belə qaçaqmal tütün ticarəti ilə məşğul olan böyük şəbəkələr var. Azərbaycanda bununla bağlı olaraq 2022-ci ildə qaçaqmalçılıqla mübarizə tədbirləri haqqında qanunvericilikdə bir sıra dəyişikliklər edildi. Hüquqi şəxslərin qaçaqmal yolu ilə tütün və spirtli içki məhsullarının ölkəyə idxalına cəhdin göstərilməsi, daxili bazarda qaçaqmal yolu ilə əldə edilmiş məhsulların satışının təşkili ilə bağlı qanunda bir sıra dəyişikliklər olundu. Biz burada əvvəllər fiziki şəxslər üçün cinayət məsuliyyətinə cəlb etməni görmürdük, amma yeni qanunda qaçaq malın həcminə görə, maliyyə sanksiyası, azadlıqdan məhrumetmə və cinayət məsuliyyətinə cəlbetmə maddələri mövcuddur. Düşünürəm ki, bu istiqamətdə Azərbaycanda mövcud olan qanunlar, qanunvericilik bazası kifayət qədər təkmildir və bu istiqamətdə də, gömrük orqanları, hüquq-mühafizə orqanları mütəmadi olaraq mübarizə aparırlar və eyni zamanda vergi orqanlarının da üzərində xüsusi payı var. Vergi orqanları da bu istiqamətdə ciddi şəkildə kameral nəzarət mexanizmlərini həyata keçirməlidir. Kassa nəzarət aparatları, vergi ödəyicisi kimi uçota alınma, xüsusilə də kiçik pərakəndə satış nöqtələrinə nəzarətin artırılması istiqamətində 2025-ci ildən etibarən daha sərt addımlar atılacaq. Çünki bununla bağlı olaraq maliyyə nazirinin müavininin də bir açıqlaması var idi. Həmçinin növbəti ildən bazarlarda kiçik pərakəndə satış nöqtələrində də vergi uçotunun təşkili və bu istiqamətdə nəzarətin gücləndirilməsi ilə bağlı tədbirlər də hazırlanıb".

**Fidan Həmişəyeva**



# Fransa bütün əxlaq normalarını aşır

## "ArteTV" telekanalının Azərbaycanla bağlı yayımladığı "sənədli film" Makron hakimiyyətinin sifarişi ilə hazırlanıb

**Fransanın "Arte.TV" telekanalı Azərbaycan haqqında obyektivlikdən kənar, heç bir əxlaq normasına və insanlığa sığmayan, saxta, riyakar "sənədli film" çəkib. "Ermənistan: Hadisələrin mərkəzində" adlı başdan-başa böhtan olan "sənədli film"in bir hissəsi 90-cı illərdə Birinci Qarabağ müharibəsi zamanı ermənilərin guya "deportasiya"sına həsr olunub.**

Azərbaycanı şərləməyi hədəfləyən "sənədli film" istehsalçılarının "ermənilərin deport olunması" kimi təqdim etdikləri kadrlar isə Kəlbəcərin işğalı zamanı azərbaycanlıların öz yurd-yuvasından didərgin düşməsini əks etdirən görüntülərdir. Fransızlar azərbaycanlıların qovulması kadrlarını həyasız, əxlaqsızcasına "məzlum erməni qaçqınlar" kimi göstərib. Kanalın tapdığı "ekspert" 90-cı illərdə "məzlum ermənilər"ə Azərbaycanın verdiyi "zülmlər"dən danışıb. Riçard Kirakosyan adlı "ekspert" 90-cı illərdə "məzlum ermənilərə" edilən "zülmləri" qondarma 1915-ci il soyqırımı ilə müqayisə edib. Kirakosyan hətta bir az da irəliyə gedərək deyib ki, Türkiyə və Azərbaycan eyni vəhşilikləri edə bilən qardaş millətlərdir. Bu "sənədli" saxtakarlıq və riyakarlıq təxminən 3 həftə öncə internet resurslarında yayılıb. Azərbaycanlıların filmə qəti etirazından və həqiqəti şərh bölümündə yazmasından sonra isə kanal növbəti, bu dəfə daha əxlaqsız varianta əl atıb. "Sənədli film"ə Azərbaycandan giriş bloklanıb, azərbaycanlıların yazdığı və həqiqəti üzə çıxaran şərhlər, videolar silinib. Azərbaycandan başqa bütün ölkələr üçün film açıq saxlanılıb. Bu o deməkdir ki, bu filmi ərsəyə gətirənlər hansı kadrlardan istifadə etdikləri, qovulanların və didərginlərin azərbaycanlılar olduğunu əvvəlcədən də biliblər. İfşa olunduqlarını gördükdə isə Azərbaycandan girişi blok edərək, ölkəmizə qarşı saxtakarlığı davam etdiriblər. Bu, əslində, Fransada Azərbaycana qarşı hansı siyasət aparıldığının əyani sübutudur.

**Millət vəkili Azər Badamov "Şərq"ə deyib ki, Fransanın "ArteTV" telekanalının Azərbaycanla bağlı yayımladığı "sənədli film" Makron hakimiyyətinin sifarişi ilə hazırlanıb. Deputatın sözlərinə görə, Fransadan bu cür riyakarlıq və saxtakarlıqdan başqa hərəkət gözlənilmir:** "Fransa və Ermənistanın eyni cinayətkar tarixi var. Fransa da soyqırımlar və qırğınlar törədib, Ermənistan da. Fransa ona görə də öz xristian cinayətkar qardaşını "məzlum", "qaçqın" kimi təqdim edir. Bununla dünya ictimaiyyətində Azərbaycana qarşı mənfi rəy formalaşdırmağa çalışır. Məhz ona görə də filmdə "müsəlman Azərbaycan və xristian Ermənistan" terminlərini qabardaraq xristianları həmrəyliyə səsləyirlər. Ermənistana dəstəyin vacibliyini təbliğ edirlər. Təbii ki, bu, Fransanın riyakarlığının, azərbaycanofob, türkofob və islamofob baxışlarının təzahürüdür".

**Parlament üzvü vurğulayıb ki, Azərbaycan və Türkiyə Fransa və Ermənistandan fərqli olaraq sülh və əməkdaşlığın carçılarıdır:** "Soyqırımlara məruz qalsaq da, Fransanın, Ermənistanın yolu ilə getmirik. Çalışırıq ki, Fransanın əsarətində əzilən xalqlar da azadlığa qovuşsun. Ermənistan bizə qarşı çoxsaylı hərbi cinayətlər işlətsə də, köhnə səhifəni bağlamağı, münasibətlərə yeni səhifədən başlamağı təklif edirik. Çox təəssüf ki, Fransa Ermənistana icazəsiz addım atmağa belə imkan vermir".

**İsmayıl Qocayev**

# Gürcüstan yeni prezidentini seçir

## Qərblə Rusiyanın mübarizəsi daha da alovlanır

**Gürcüstanda qarşıdan gələn prezident seçkilərinə görə ictimai-siyasi vəziyyət kifayət qədər gərgindir. Ölkədə qütbləşmə pik həddə çatıb.**

26 oktyabr seçkiləri nəticəsində parlamentdə mandat qazanmış müxalifət partiyaları seçkilərin nəticələrini tanımadıqlarını bəyan ediblər. Seçkidən əvvəl və seçki prosesi zamanı ciddi problemlərin yaşandığını bildirən müşahidə təşkilatları baş tutmuş seçkilərin Gürcüstan xalqının arzusunu əks etdirmədiyini bəyan edirlər.

Prezident Salome Zurabişvili nəticələri tanımadığını bəyan edərək onu qeyri-legitim adlandırıb.



Prezident seçkilərindən sonra da ölkədə bir müddət siyasi gərginlik davam edəcək

14 dekabr tarixində də Gürcüstanda prezident seçkiləri keçiriləcək. Artıq müxalifət cəbhəsindən ilkin reaksiyalar da gəlməkdədir. Müxalifətin sözügedən seçkilərdə iştirak etməyəcəyi bildirilir.

Qeyd edək ki, prezident ümumxalq səsvermə yolu ilə deyil, 300 nəfərdən ibarət seçki kollegiyası tərəfindən seçiləcək. Sözügedən 300 nəfərdən 150 nəfəri parlamentdə mandat qazanmış deputatlardan, 150 nəfəri isə yerli özünüidarəetmə (bələdiyyə) orqanlarının nümayəndələrindən ibarət olacaq.

300 nəfərdən ibarət seçki kollegiyasının 156 nəfəri hakim "Gürcü arzusu"nu, 124 nəfəri müxalifət partiyalarını, 20 nəfəri isə Abxaziya Ali Sovertini təmsil edəcək.

İlk turda prezidentliyə namizədin qalib gəlməsi üçün 200 səsə ehtiyac var. Birinci turda qalib müəyyənləşmədiyi təqdirdə, seçkilərin ikinci turu baş tutacaq və prezident sadə səs çoxluğu ilə (151 kollegiyanın dəstəyi) seçiləcək.

300 nəfərdən ibarət kollegiyanın tərkibi onu göstərir ki, hakim "Gürcü arzusu" prezidenti təkbaşına seçəcək.

Qeyd edək ki, "Gürcü arzusu" Partiyası Gürcüstan prezidentliyinə namizədi olaraq sabiq futbolçu, IX və X çağırış Gürcüstan parlamentinin üzvü Mixeil Qavelaşvilini irəli sürüb. Mixeil Qavelaşvili IX və X çağırış Gürcüstan parlamentinin üzvü olub. O, hakim partiyadan formal olaraq ayrılan "Xalqın gücü" adlı partiyanın təsisçilərindən biridir. Qavelaşvili həmçinin son zamanlar anti-qərb mesajları və müxalifətə qarşı təhqiredici ifadələrlə yadda qalmaqdadır.

**Qonşu ölkədəki siyasi gərginliyi dəyərləndirən Milli Cəbhə Partiyasının sərd müavini, siyasi ekspert Tural İrfan "Şərq"ə açıqlamasında deyib ki, Gürcüstanda keçiriləcək seçkilər indidən gərginliklə müşayiət olunur:**

"Şübhəsiz ki, Avropa və Rusiya arasında, əsasən də ABŞ və Rusiya arasındakı siyasi gərginlik Gürcüstana da sıçrayır. Gürcüstan uğrunda Rusiya və ABŞ arasında rəqabət gedir. Hər biri seçkilərin gedişinə təsir göstərməyə çalışır, özlərinin hazırladığı qüvvələri hərəkətə keçirirlər. Müxalifətin prezident seçkilərində iştirakını isə indidən proqnozlaşdırmaq çətindir. Çünki ani qərarla iştirak da edə bilərlər. Xüsusən Qərb dairələrinin proseslərə ciddi təsir imkanlarının olduğu halda məsləhətləşmələr nəticəsində həlledici məqamda qərar qəbul edilə bilər. Mixeyil Qavelaşvilinin prosesləri müdrikcə idarə edərək sabitlik yarada biləcək potensiala sahib olduğunu zənn etmirəm. Hələ ki, onun namizədliyi nəzərə çarpır, lakin yaxın zamanda digər namizədlər də üzə çıxacaq və böyük ehtimalla müxalifətin namizədi seçki prosesinə daha aktiv müdaxilə edəcək. Hər bir halda Gürcüstanda sabitlik, siyasi stabillik qonşu ölkə olaraq bizi də maraqlandırır. Siyasi böhranın davam etməsi Gürcüstanı zəiflədir ki, bunun təsirləri həm orada yaşayan soydaşlarımıza həm də dost və qonşu xalq olaraq bizi narahat edir. Ümumiyyətlə, əsasən siyasi böhranın bir səbəbi də prezidentlik uğrunda mübarizədir. Qərblə Rusiyayönümlü qüvvələr arasındakı gərginlik ümumi vəziyyəti də tarıma çəkir. Lakin hesab edirəm ki, artıq proseslər seçkiyə qədər daha da gərgin həddə çataraq seçki ilə sabitləşəcək. Prezident seçkilərinə qədər, hətta olsun ki, ondan sonra da müəyyən müddət siyasi gərginlik davam edəcək".

**Şəymən Bayramova**

# Dudanın Makronsayağı davranışları...

## Polşa Prezidenti Bakı və Varşava arasındakı münasibətlərə ciddi şəkildə xələl gətirir

**Noyabrın 28-də Polşanın Azərbaycandakı müvəqqəti işlər vəkili Mixal Qreçilo Xarici İşlər Nazirliyinə çağırılıb. Xarici İşlər Nazirliyindən verilən xəbərə görə, görüş zamanı, Azərbaycan tərəfinin xəbərdarlıqlarına baxmayaraq, Polşa Prezidenti Anjey Dudanın Ermənistan-Azərbaycan sərhəd bölgəsinə, hələ də Ermənistanın işğalı altında olan Kərki kəndinə yaxın əraziyə səfər edərək, Avropa İttifaqının Ermənistandakı Missiyası ilə birgə Azərbaycan əleyhinə təbliğatda iştirakına etiraz bildirilib.**

Sözügedən missiyanın regional sabitlik, habelə Azərbaycanla Ermənistan arasında etimad quruculuğuna töhfə vermək kimi bəyan edilmiş məqsədlərinə zidd olaraq, Azərbaycan əleyhinə alət kimi geniş şəkildə sui-istifadə olunduğu xatırlanıb. Bu təxribatın Azərbaycan-Polşa münasibətlərinə zidd olduğu, Azərbaycanın legitim təhlükəsizlik maraqlarına təsir edən bu kimi addımlardan çəkinməyin zəruri olduğu diqqətə çatdırılıb.



**Politoloq Zeynal Əmrəliyev "Şərq"ə söyləyib ki, Avropa Birliyinin müşahidə missiyası adı altında fəaliyyət göstərən həmin qrupun işinə Azərbaycan Praqada görüşündə icazə vermişdi:**

"Həmin qrupun fəaliyyətiylə bağlı konkret zaman müəyyənləşmişdi və onlar həmin vaxt çərçivəsində işini yekunlaşdırmalıydı. Yəni Ermənistan Azərbaycan qarşısında belə bir öhdəliyi öz üzərinə götürmüşdü. Buna baxmayaraq, rəsmi İrəvan davamlı şəkildə həmin qrupun fəaliyyət müddətinin uzadılması ilə bağlı qərarlar çıxarır. Müşahidə missiyası adı altında fəaliyyət göstərən qrup da "binokl diplomatiyası" həyata keçirməklə kəşfiyyat məlumatları toplamaqla məşğuldur. Onların yanına Fransa bayrağı olan avtomobillər yerləşdirilib. Fransa kəşfiyyatçıları da onlara qoşularaq faktiki şəkildə Azərbaycanla sərhəddə kəşfiyyat məlumatları yığırlar. Bu, Azərbaycana qarşı qərəzli mövqedir. Azərbaycanla münasibətləri normal səviyyədə olan Polşa Prezidenti Andjey Dudanın müşahidə missiyasını ziyarət etməsi və onların fəaliyyəti ilə bağlı sözlər deməsi də kifayət qədər qərəzli yanaşmadır. Görünən odur ki, Polşa prezidenti hakimiyyətdən getməsinə cox az qaldığı bir vaxtda regionda gərginliyin artmasında maraqlıdır. Hesab edirəm ki, Duda özünü Fransa Prezidenti Emmanuel Makronun yanında görür. Dudanın Makronsayağı davranışları onun Cənubi Qafqazla siyasətinə ciddi təsir göstərə bilər. Hətta Bakı və Varşava arasındakı münasibətlərə ciddi şəkildə xələl yetirər. Polşa regionda sülh və təhlükəsizliyə əngəl yaradacaq addımlardan qaçmalıdır. Çünki belə addımlar onun öz ziyanınadır. Duda yaxşı bilir ki, Cənubi Qafqazın açar dövləti Azərbaycandır və rəsmi Bakıyla münasiblətləri pisləşdirmək Polşaya yaxşı heç nə vəd etmir".

**Şahanə Ziyad**

# 7 gün ard-arda iş olacaq

## Baş nazirin imzaladığı qərarda Əmək Qanunvericilyi pozulmayıb

**Yeni il ərəfəsində gözlənilən hadisələrdən biri də 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni İl bayramı ilə əlaqədar qeyri-iş günləri ilə bağlı qərar verilməsidir. Son illərdə bayramlarla bağlı vətəndaşlara xeyli istirahət günləri hədiyyə edilir.**



"Əmək Məcəlləsinə görə, işçi həftə ərzində 40 saatdan artıq işləyirsə, bunu həftəlik yox, aylıq balansla tənzimləmək mümkündür"

Kimlər istirahət edir, kimlər işləməkdə davam edir, bu, ayrı mövzudur. İstirahət günlərinin yeri dəyişdirilməklə bayram günlərinin sayı artır. Əvəzində həftə sonları iş günü elan edilir. Burada məqsəd iş və istirahət günlərinin ardıcıllığını təmin etməkdir. Ki, məsələn, xarici ölkələrə səyahətə getmək arzusunda olanalar və ya ölkəmizin səfalı guşələrində istirahət etmək istəyənlər bir neçə gün ardıcıl istirahət edib, yorğunluqdan azad olsunlar. İlin sonlarına yaxın Baş nazir Əli Əsədov növbəti dəfə buna imkan yaradan qərar imzalayıb. Baş nazirin imzaladığı qərara əsasən, Azərbaycanda iş və istirahət günlərinin yerləri dəyişdirilib. Qərara əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2024-cü il 30 dekabr və 2025-ci il 3 yanvar iş günləri ilə müvafiq olaraq 2024-cü il 28 və 29 dekabr istirahət günlərinin yerləri dəyişdirilib. Bununla da, iş həftəsi 23 dekabrda başlanacaq dekabrın 29-u isə ilin sonuncu iş günü olacaq. Növbəti iş həftəsi isə artıq 2025-ci il yanvarın 6-dan etibarən başlanacaq.

Lakin 7 günlük iş həftəsi bəzən işçilərin daha çox yorulmasına da səbəb olur. 5 və ya 6 günlük iş həftəsinə vərdiş etmiş insanlar 7 gün ard-arda işə gəlib-getməyin yorucu, sıxıcı olduğunu bildirir. Həmçinin Baş nazirin məlum qərarının Əmək Qanunvericilyini pozduğu iddiaları da var. Sosial şəbəkə istifadəçiləri arasında "1 həftəlik iş rekorddur həqiqətən. NK ölkədə olan 40 həftəlik iş rejimini pozur. Düzgün deyil", "Noyabrda da pozulub bu norma, amma 6 günlə, indi isə 7 gün dalbadal", "40 həftəlik iş rejimini də, həftəlik iş saatı rejimini də pozulur! Üstəlik, bu ildə 1 dəfə olan xüsusi hal deyil, bir neçə dəfə edilir", yazanlar var.

**Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov "Şərq"ə açıqlamasında məlum qərarla Əmək Qanunvericiliyinin pozulmadığını bildirdi:**

- Bayram istirahətinin davamlı olması üçün belə bir qərarın qəbul olunması normaldır. Qonşu ölkələrdə də bu təcrübə var. İnsanlar kiçik məzuniyyət planlaşdıra bilir, xarici ölkələrə səfər edə bilir, qohum-qardaş evinə gedə bilir. Düzdür, bizdə özəl sektor bu qaydanı gözləmir. Həmçinin işində fasilə verə bilməyənlər də işini davam etdirir. Məsələn, nəqliyyat sektoru, səhiyyə, ərzaq təchizatı və sair. Amma idarə və müəssisələr, digər xidmət sahələri istirahət edir. Burada qanun pozuntusu yoxdur. 40 saatlıq iş həftəsi məsələsi isə belədir ki, Əmək Məcəlləsinə görə, işçi həftə ərzində 40 saatdan artıq işləyirsə, bunu həftəlik yox, aylıq balansla tənzimləmək mümkündür. Aylıq balans olmayanda isə illik balansla tənzimləmək olur. İşçinin iş saatı aylıq 177 saatı keçməməlidir. Əmək Məcəlləsinə görə, işçinin summativ iş saatları 177 saatdan artıq olmamalıdır. Bayram günləri olmayanda da işçini 10-12 saat işlədənlər var. Məlum qərarda isə qanunvericilik baxımından pozuntu yoxdur.

**Məlahət Rzayeva**

# Görüntülər həqiqət ola bilər

## Ancaq Ermənistanın Azərbaycanla müharibə etməsi ağlabatan deyil



**Ermənistan ordusunun hərbi kolonunun Kərkiyə doğru hərəkət etməsini əks etdirən görüntü yayılıb. Erməni sosial şəbəkə istifadəçiləri Ermənistan hərbi birliklərinin Cermukdan çıxarılaraq, Naxçıvanla şərti sərhədə, Kərki istiqamətinə getdiyini qeyd edib.**

Hərbi kolonun haubitsalar da daşıdığı görünür. Az öncə isə Ermənistan Müdafiə Nazirliyi qüvvələrin Cermukdan geri çəkilməsi barədə xəbəri təkzib etsə də, hərbi kolonun Kərki istiqamətində hərəkəti haqda heç bir məlumat verməmişdi.

**Siyasi şərhçi Azər Həsrət "Şərq"ə bildirib ki, Ermənistan mediasında yayılan informasiyalara görə güya, rəsmi İrəvan ordusunu Cermukdan geri çəkərək torpağın bir hissəsini Azərbaycana verir:**

"Amma dünən Ermənistan Müdafiə Nazirliyi açıqlama verdi ki, heç bir geri çəkilmə yoxdur və Azərbaycana torpaq verməkdən söhbət gedə bilməz. Hesab edirəm ki, ortalığı qarışdırmaq istəyən qüvvələr dezinformasiya yayaraq yenə də gərginlik yaratmaq istəyirlər. Kərki istiqamətində ordu qüvvələrinin hərəkət etməsini göstərən görüntülər həqiqət ola bilər. Burada bizi narahat edəcək heç nə yoxdur. Çünki Ermənistan ordusu öz ərazilərində sərbəst şəkildə hərəkət edə bilərlər. Ermənistanın hazırkı vəziyyətində Azərbaycanla müharibə etməsi ağlabatan deyil. Çünki Azərbaycanın gücü qarşısında Ermənistan istədiyi vaxt hansısa təxribata əl ata bilməz".

**Şahanə**



# Yeni dünya nizamında bu təşkilata ehtiyac olmayacaq

## KTMT Rusiya-Belarus və Tacikistanı əhatə edən bir təşkilat səviyyəsindədir

**"KTMT Qarabağda İrəvanın tərəfində vuruşmamalı idi, çünki Ermənistana qarşı heç bir xarici təcavüz olmamışdı. Hər bir ölkənin təhlükəsizlik sahəsində nə edəcəyini özü seçmək hüququ var".**

Bunu Rusiya Prezidenti Vladimir Putin Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Qazaxıstanda keçirilən sammitində iştirak etməməsinə münasibət bildirərkən deyib. Rusiya Prezidenti qeyd edib ki, Ermənistan təşkilatdan çıxdığını elan etməyib. Putin əlavə edib ki, İrəvanın KTMT-də tamhüquqlu işə qayıtması ehtimalı qalır və Ermənistan təşkilatın sammitinin bütün sənədlərini dəstəkləyir. Rusiya lideri hesab edir ki, Ermənistanın KTMT-yə hazırkı münasibətini daxili siyasi problemlər və Qarabağ mövzusu diktə edir. Prezident vurğulayıb ki, KTMT Qarabağda İrəvanın tərəfində vuruşmamalı idi, çünki bu halda Ermənistana qarşı heç bir xarici təcavüz olmamışdı. Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu deyib ki, Rusiyanın nüvə çətiri yenilənmiş doktrinaya əsasən ilk növbədə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvlərinə aiddir. O, yeni doktrinada həmçinin Belarusla bağlı əlavənin olduğunu söyləyib. Bildirib ki, Belarusa adi silahlarla hücum halında belə nüvə silahından istifadə ediləcək. KTMT-yə Rusiya, Belarusa, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Ermənistan daxildir. Xatırladaq ki, Ermənistan KTMT-nin 28 noyabrda Astanada keçirilən növbəti zirvə toplantısında iştirakdan da imtina edib.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə deyib ki, Ermənistan KTMT de-fakto çıxıb. Analitik bildirib ki, 30 il ərzində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) nəinki beynəlxalq müstəvidə, heç regional təşkilat kimi özünü doğrultmayıb:**

"Rusiya bu təşkilata üzv ölkələrlə bərabərhüquqlu deyil, Moskvaya tabe etdirmək siyasəti apardı. Ona görə də üzv ölkələr təşkilatın inkişafında maraqlı olmadılar. Görüntü xatirinə bu təşkilatda qaldılar. Ümumiyyətlə, yeni dünya siyasi nizamında bu təşkilata ehtiyac olmayacaq. KTMT Rusiya-Belarus və Tacikistanı əhatə edən bir təşkilat səviyyəsindədir. Bu iki üzv Rusiya-Ukrayna müharibəsində neytrallıq nümayiş etdirir. Ermənistana gəldikdə isə KTMT de-fakto fəaliyyətini dayandırıb. Gələn ildən de-yure bu təşkilatı tərk edə bilər. Artıq Ermənistan üçün KTMT öz aktuallığını itirib. Rusiya rəhbərliyi KTMT müasir siyasi və hərbi çağırışlara cavab vermədiyinin fərqindədir. Qazaxıstan və Qırğızıstan daha çox Türk Birliyi çərçivəsində hərbi təşkilatda maraqlıdır və Ankara ilə təhlükəsizlik sahəsində əməkdaşlığı inkişaf etdirir. Çünki Rusiya KTMT çərçivəsində bu iki ölkəni öz təsir dairəsində saxlamaq istəyir".

**Analitikə görə, Rusiya nüvə çətirinin müttəfiq ölkələrə şamil edildiyini vurğulamaqla KTMT-nin nüvə çətiri olduğunu Qərbə mesaj verir:**

"Amma belə bir proses KTMT-ni inkişaf etdirməyəcək. Rusiya Ukraynada qalib gələrsə, yeni üzvlər cəlb etməklə, KTMT-ni NATO-ya alternativ edə bilər. Hazırda isə KTMT parçalanır və zəifləyir. KTMT-nin Ukrayna müharibəsində olmaması bu təşkilatın kağız üzərində fəaliyyət göstərdiyini nümayiş etdirdi. Rusiya Kursk uğrunda döyüşlərdə KTMT üzvlərindən yox, Şimali Koreyadan yardım aldı".

**İsmayıl Qocayev**

# AĞ Partiya bələdiyyə seçkilərinə ciddi hazırlıq görmür

## Əhəd Məmmədli: "Bizdə vəziyyət ayrı cürdür"



**Bələdiyyə seçkiləri 2025-ci il yanvarın 29-da keçiriləcək. Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bələdiyyələrin həm sərhədləri, həm məntəqələr, həm də bələdiyyə ərazisində olan seçicilərin sayı ilə bağlı zəruri addımların atıldığını deyib. Sədr bildirib ki, bələdiyyələrin birləşməsindən sonra artıq Azərbaycanda 685 bələdiyyə fəaliyyət göstərir.**

Bələdiyyə seçkilərinə dair Təqvim Planı da təsdiq edilib və şikayətlərin araşdırılması məqsədilə Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupu yaradılıb. Seçkiqabağı təşviqat gələn il yanvarın 6-da başlayacaq. Namizəd olmaq istəyənlər səsvermə gününə ən çoxu 50 və ən azı 30 gün qalmış saat 18:00-dək namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərini dairə seçki komissiyasına təqdim etməlidir. Bələdiyyə seçkilərinə fevralın 23-dək yekun vurulacaq. MSK sədri siyasi partiyaları, ictimaiyyəti bələdiyyə seçkilərində fəal olmağa səsləyib.

**AĞ Partiyanın sədr müavini Əhəd Məmmədli "Şərq"ə açıqlamasında deyib ki, bələdiyyə strukturları və seçkilərlə bağlı vəziyyət heç də ürəkaçan deyil. Ona görə də bələdiyyə seçkiləri sönük keçirilir və iştirak zəif olur:**

"MSK sədri siyasi partiyaları fəal olmağa, seçkidə aktiv iştiraka çağırır. Bələdiyyə rəhbərliyində neçə partiya təmsil olunur? Ümumiyyətlə, bələdiyyələrdə müxalifət partiyalarının mövcudluğu nə qədərdir? Deyirlər ki, bələdiyyələr seçkili orqandır, yəni kimsə yoxdursa, deməli, onu seçməyiblər. Ancaq belə olmadığını hamımız yaxşı bilirik. Ən ciddi problem isə bələdiyyə strukturlarının səlahiyyətləri ilə bağlıdır. Bir zibil yığımı ilə məşğul olurdular, onu da səhv etmirəmsə, icra hakimiyyətlərinə verdilər. Azərbaycanda bələdiyyə qurumu, bələdiyyə seçkisi deyiləndə vətəndaşın ağlına nə gəlir? Əksər hallarda "torpaq satan qurum" kimi baxırdılar. Amma indi də deyirlər ki, artıq satmağa torpaq da qalmayıb. Bələdiyyələr elə vəziyyətə salınıb ki, seçkilərdə iştirak etmək istəyənlər tapılmır. İnsanlarda həvəs, istək yoxdur. Əhəmiyyətsiz, mənasız yanaşırlar. Üzv olmağa belə adam tapılmır. Kənd adamlarına yalvarırlar ki, "gəl bələdiyyə üzvü ol, yer dolsun". Belə şəraitdə ciddi, təsirli seçkidən danışmaq olmur".

**Partiya funksioneri vurğulayıb ki, əslində, AĞ Partiya bütün seçkilərdə iştirakın tərəfdarıdır:**

"Bələdiyyə seçkiləri ilə bağlı da üzvlərimizə könüllü iştirakla bağlı müəyyən tapşırıqlar verilib. Ancaq demək istədiyim odur ki, bələdiyyə qurumu və bu orqanlara seçkilər ciddi olmalıdır ki, partiyalar prosesə ciddi hazırlaşsınlar. Başqa partiyaları deyə bilmərəm, amma AĞ Partiya bələdiyyə seçkilərinə ciddi hazırlıq görmür. Bələdiyyələrin səlahiyyətləri arzulanan səviyyədə artırılarsa, müxalifət partiyalarının təmsilçiliyi, iştirakı təmin olunarsa, o halda güclü bələdiyyədən danışmaq olar. Yox əgər bələdiyyə sədrləri icra başçılarının dedikləri ilə durub-oturacaqlarsa, elə ləğv edilsələr yaxşıdır. Halbuki bələdiyyə seçkili orqandır, icra hakimləri isə təyinatlı strukturdur. Seçkili orqan təyin olunan qurumdan daha üstün olmalıdır. Bizdə vəziyyət ayrı cürdür".

**İsmayıl Qocayev**

# Uşaqlara sosial media yasağı gəlir

## Telefondan istifadə keçid dövrü kimi 14 yaş daha uyğun olar

**13 yaşından kiçik uşaqların sosial mediadan istifadəsinin qarşısını almaq üçün araşdırmaya başlanılıb. Hazırda Türkiyə Böyük Millət Məclisinin Uşaq Hüquqları Komissiyası bu məsələ üzərində işləyir. Dünyadakı mövcud təcrübələrə görə, 13 yaşından kiçik uşaqlar valideynlərinin icazəsi ilə telefondan istifadə edə bilər və ya yalnız günün müəyyən saatlarında onlara telefondan istifadə etməyə icazə verilir.**



### "Türkiyədə bu məsələ yüksək səviyyədə müzakirə edilirsə, bizim ölkədə də məsələyə baxılmalıdır"

Bəzi sosial media platformaları da bu yaşda olan uşaqların girişini qadağan edir. Qardaş Türkiyədə də sosial media platformalarında uşaqları təhlükələrdən qorumaq üçün həll yolları axtarılır. Bununla bağlı Türkiyənin İnformasiya Texnologiyaları və Rabitə İdarəsi araşdırmaya başlayıb. Türkiyə Böyük Millət Məclisinin azyaşlıların problemləri ilə məşğul olan Alt Komitəsinə məlumat verən adıçəkilən idarənin sədr müavini Əbdülkərim Gün ABŞ-nin Florida ştatında 13 yaşından kiçik uşaqların sosial mediadan istifadəsinin qadağan edildiyini, Avstraliyada isə məhdudlaşdırıcı qaydalar tətbiq edildiyini, 16 yaşından kiçik uşaqlar üçünsə tənzimləmə qaydalarının qüvvəyə minmək üzrə olduğunu bildirib. Ə.Gün bildirib ki, BTK olaraq "İnternetdə yayımlanan nəşrlərin tənzimlənməsi və bu nəşrlər vasitəsilə törədilən cinayətlərə qarşı mübarizə haqqında" 5651 saylı Qanuna dəyişiklik edilməsi ilə bağlı sosial media proqramlarına və sosial şəbəkələrə nəzarət altında olan şəxslərin çıxışını qadağan etmək üçün çalışırlar. Ə.Gün, "hazırda 13 yaşından kiçik şagirdlərin, yəni orta məktəb uşaqlarının, başqa sözlə orta məktəbi tamamlayan bir şagirdin sosial media tətbiqlərinə və sosial şəbəkələrə girişini qadağan edəcək bir araşdırma üzərində işləyirik. 5651 nömrəli tənzimləmə üçün biz təkliflər irəli sürəcəyik", söyləyib. Türkiyənin "Sabah" qəzetindən Öndər Yılmazın xəbərinə görə, Uşaq Xidmətləri Ümumi Müdirliyinin Qoruyucu və Profilaktik Xidmətlər Şöbəsinin müdiri Eda Şirnevai, uşaqların smartfon istifadəsini məhdudlaşdırmaq üçün Türkiyə Böyük Millət Məclisi ilə birlikdə çalışdıqlarını açıqlayıb. Komissiyaya təqdimatla çıxış edən professor Tuncay Dilçi, bir çox ölkədə 13 yaşdan kiçik uşaqlar üçün smartfonların qadağan edildiyini bildirərək, Türkiyədə də oxşar təcrübənin gündəmə gətirilməsini təklif edib. Şöbə müdiri Şirnevai isə bununla bağlı TBMM Uşaq Hüquqları Komissiyası ilə birgə işlədiklərini deyib. Ailə və Sosial Xidmətlər Nazirliyinin uşaqların sosial şəbəkələrdən və sosial şəbəkələrdən istifadə etməsi ilə bağlı dünya nümunələrini araşdırdığı da qeyd edilib. Uşaqların sosial şəbəkə və internet resurslarından istifadəsinə dair bir sıra ölkələrdə müxtəlif qadağalar mövcuddur. Məsələn, Çində 16 yaşından kiçik uşaqların valideynlərinin icazəsi ilə sosial media hesabı açması tələb olunur. Çində saat 22:00-dan 06:00-a qədər mobil cihazlara və internetə giriş də qadağandır. ABŞ-nin bəzi ştatlarında 14 yaşından kiçik şəxslərin sosial mediadan istifadəsini qadağan edən qanun təsdiqlənib, 2025-ci ildən qüvvədə olacaq. Fransada 15 yaşdan aşağı olanlara sosial şəbəkələrə daxil olmaq üçün valideyn icazəsi tələb edilir. Cənubi Koreyada 16 yaşından kiçik uşaqlar üçün gecə saat 24:00-dan 06:00-ya qədər onlayn oyun oynamaq qadağandır. Böyük Britaniyada və Rusiyada yaşı 13-dən aşağı olanlara onlayn platformalarda hesab açmaq qadağandır. İtaliyada 14 yaşından kiçik şəxslərin mobil telefona sahib olması, 16 yaşından kiçiklərin isə sosial şəbəkələrdə profil açması qadağandır. Avstraliyada 14 yaşdan kiçik insanlar üçün sosial media qadağası var. Qadağaya əməl etməyənlərə qarşı ciddi cəzalar və sanksiyalar tətbiq olunur. Yunanıstanda uşaqların sosial mediadan istifadəsi ilə bağlı araşdırma aparılır. İrlandiyada isə yaşı 16-dan aşağı olanların smartfonlardan istifadəsinə tam qadağa qoyulması müzakirə olunur.

Sosial şəbəkə, digər internet resursları, smartfonlar və onlayn oyunların azyaşlıların psixikasına mənfi təsir göstərdiyi, uşaqların aqressiyasını artırdığı, fiziki və əqli inkişafa mənfi təsir göstərdiyi, uşaqların zərərli informasiyalardan qorunmasına mane olduğu bəllidir. Dünya ölkələrində uşaqlar və yeniyetmələrə sosial media yasağı olduğu bir vaxtda, Türkiyədə bu məsələ yüksək səviyyədə müzakirə edilirsə, bizim ölkədə də bu məsələyə baxıla bilərmi və buna zərurət varmı?

**"Şərq"ə açıqlamasında "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova qeyd etdi ki, uşaqların zərərli informasiyalar və sosial şəbəkələrdə yayılan yaşlarına uyğun olmayan məlumat və videolardan qorunması vacibdir:**

- İnternet təhlükəsizliyi ilə bağlı Azərbaycan artıq ciddi tədbirlər həyata keçirir və qoşulduğumuz beynəlxalq konvensiya da bu öhdəliyi bizə verir. Uşaqların telefondan neçə yaş həddində istifadə edə bilməsinə gəlincə, hesab edirəm ki, keçid dövrü kimi 14 yaş daha uyğun olar. Amma bu necə tənzimlənəcək, əsas məsələ budur. İstər lap 16 yaş olsun. Qanunun tətbiqi və icrası mexanizmi o qədər dəqiq işlənməlidir ki, sabah ayrı-seçkilik yaranmasın. Qadağalar olacaqsa, bu, hamıya şamil edilməlidir.

**Məlahət Rzayeva**



# Atəşkəs "kövrək" razılaşmadır

## Netanyahunun üstündə müəyyən bir basqı hiss olunur

**İsrail ordusunun sözçüsü Daniel Haqari deyib ki, Hizbullah İranın etibarlı qüvvəsidir və İslam Respublikası onu gücləndirmək üçün çoxlu maliyyə, silah və insan resursları yatırıb. Daniel Haqarinin sözlərinə görə, İran İsrailin sərhədlərinə yaxın ərazidə strateji sərvətini itirib.**

**Politoloq Natiq Miri "Şərq" ə bildirib ki, Hizbullah İranın proksi qüvvələridir:**

"Sözügedən proksi qüvvələr hər zaman İsrailə qarşı təzyiq mexanizmi kimi istifadə olunur. İran bunu uzun yardım və maliyyələr kontekstində həll edib. Ancaq indiki vəziyyətdə Hizbullah başsızlaşdırılıb. Yəni onun bütün rəhbərliyi və komandanlığı qısa müddətdə İsrailin xüsusi xidmət orqanları vasitəsilə aradan götürüldü. Bununla da, Hizbullahın potensialına çox ciddi zərbə vuruldu. Atəşkəs razılaşması isə Hizbullah yaraqlılarının sərhəddən çıxarılmasına xidmət edir. Hizbullahın yerləşdiyi mövqeləri artıq 5 minlik Livan ordusu əvəz edəcək. Əgər Hizbullah bu razılaşmanı pozarsa, İsrail yenidən hərbi əməliyyatlara başlayacağını bildirib".

### "İndiki halda İsrail baş nazirinin Trampla məsləhətləşməyə və onun yardımına ehtiyacı var"

**Politoloqun sözlərinə görə, razılaşmanın pozulması an məsələsi olsa da, Donald Trampın qərarı xüsusi rol oynayacaq:**

"Çünki atəşkəsdən razı olmayan qüvvələr var. Bu kontekstdə bölgədə hərbi təxribatlar yaratmaq o qədər də problem deyil. Ona görə də mən atəşkəsi "kövrək" razılaşma adlandırardım. Ancaq indiki vəziyyətdə hər iki tərəfin - həm İsrailin, həm də Hizbullahın toparlanmasına ehtiyac var. Həmçinin İsrailin itkiləri çoxdur və raket bazası da xeyli məhdudlaşıb. Bu mənada hücum potensialının imkanlarının yenidən əvvəlki səviyyəyə gətirilməsi üçün indiki fasilə olmazsa olmazdır. Sözügedən fasilədən Netanyahu hökuməti həm də özlərinin gələcək planlarını qurmaq üçün istifadə edəcək. Çünki perspektivdə Netanyahunun yaxın dostu hesab olunan Donald Trampın yanvarın 20-sində andiçmə mərasimi olacaq. Tramp Baydendən fərqli olaraq hər zaman Netanyahu və İsraili dəstəkləyib və İrana qarşı çıxıb. Ümumiyyətlə, Tramp gedər ayaqda olan Bayden hakimiyyətini yola salarkən onlara müəyyən siyasi dividendlər verməklə həm könüllərini xoş etdi, həm İsrailin toparlanması üçün zaman yaratdı, həm də bu zaman çərçivəsində hakimiyyətin dəyişməsi ilə yeni bir strateji müəyyənləşdirmək üçün hazırlıqlar görəcək. Digər tərəfdən, Beynəlxalq Cinayət Məhkəməsinin Netanyahunun həbsi ilə bağlı orderi var. Buna görə də Netanyahunun üstündə müəyyən bir basqı hiss olunur. Bu kontekstdə İsrail baş nazirinin Trampla məsləhətləşməyə və onun yardımına ehtiyac var. İran isə Hizbullahı ona görə İsrail sərhədində yaradıb ki, İsrailə hər zaman zərbə vurmaq, təzyiq etmək imkanı olsun. Buna görə də İranın bu siyasətdən vaz keçəcəyini düşünmək doğru deyil".

Şərhçi sonda əlavə edib ki, İran yenə də Livanda dominant güc olmağı və Hizbullahı dəstəkləməyi dayandırmayacaq.

**Aynur Babayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycançılıq ideyasının təbliği



# Yeni reallıqlar yeni imkanlar deməkdir

## Azərbaycançılıq ideologiyası siyasətinin davam etdirilməsi mühüm aktuallıq kəsb edir

**Azərbaycan tarixən müxtəlif millətlərin dinc yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu ölkə olub. Burada hər bir xalqın və millətin nümayəndəsinə bərabər münasibət göstərilib. Ona görə Azərbaycan vətəndaşı sayılan hər kəs azərbaycançılıq ideyası ətrafında birləşib. Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası ictimai-siyasi proseslərə, konstitusiya sisteminə, xüsusilə dövlət quruculuğuna öz müsbət təsirini göstərir.**

Azərbaycançılıq ideyası Azərbaycanın müstəqilliyini qorumaq, onun demokratik inkişafını təmin etməklə bərabər, davakar millətçilik və şovinizmə qarşı təşəkkül tapmış ideologiyadır. Azərbaycançılıq ideyasının kökündə millətçilik yox, vətəndaşlıq dəyəri dayanır. Bu ideyanın məqsədi çoxmillətli Azərbaycan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır.

Azərbaycançılıq xalqın milli-mənəvi varlığının ilkin əlamətlərini, onun kimliyini əks etdirən, milli təfəkkürünü birləşdirən dəyərlər sistemidir. Bu dəyərləri cəmləşdirən dil, ərazi, vətəndaşlıq, adət-ənənə və ideoloji birlik azərbaycançılıq ideologiyasının əhatə dairəsini sərhədsiz edir. Azərbaycandan kənarda yaşayan soydaşlarımızla yanaşı, milliyyətindən asılı olmayaraq Azərbaycanın müstəqilliyini, birliyini və hüquqi, demokratik dövlət kimi inkişafını arzulayan hər bir kəs azərbaycançılıq ideologiyasının daşıyıcısıdır. Azərbaycançılıq özündə "vətəndaşlıq", "vətənpərvərlik", "loyallıq", habelə cəmiyyət və dövlət qarşısında vətəndaşın məsuliyyətini birləşdirir.

**Millət vəkili Ceyhun Məmmədovun sözlərinə görə, azərbaycançılıq Azərbaycanın müstəqilliyini qorumaq, onun demokratik inkişafını təmin etməklə bərabər, ifrat millətçilik və şovinizmə qarşı təşəkkül tapmış ideologiyadır:**

”Azərbaycançılıq ideyasının kökündə vətəndaşlıq dəyəri dayanır. Bu ideyanın məqsədi Azərbaycan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır. Azərbaycan xalqını birləşdirən azərbaycançılıq ideologiyası müstəqilliyin qorunmasına, demokratik inkişafa və hüquqi, sosial dövlətin əsaslarının gücləndirilməsinə xidmət edir. Azərbaycançılığın xalqımızın milli-tarixi sərvəti olduğunu deyən millət vəkilinin sözlərinə görə, bu, ilk növbədə, vahid və bölünməz Azərbaycanın qorunub saxlanılması və möhkəmləndirilməsinin siyasi-ideoloji əsasıdır. Bu gün azərbaycançılıq milli həyatın ahəngdarlığının, konfessiyaların dinc yanaşı yaşamasının, ölkədə yaşayan bütün etnosların qardaşcasına qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə mübarizəsinin ümumi tarixi təcrübəsidir. Azərbaycançılığın məzmununu müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların üzvi şəkildə vəhdəti təşkil edir. Lakin azərbaycançılıq ideologiyası Azərbaycanın ərazisində yaşayan xalqın həmrəyliyi ilə məhdudlaşmır. Bu ideologiya həm də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsini, ölkəmizin güclənməsini istəyən insanları birləşdirir”.

**Deputat qeyd edib ki, azərbaycançılıq xalqın milli-mənəvi varlığının ilkin əlamətlərini, onun kimliyini əks etdirən, milli təfəkkürünü birləşdirən dəyərlər sistemidir:**

”Bu dəyərləri cəmləşdirən dil, ərazi, vətəndaşlıq, adət-ənənə və ideoloji birlik azərbaycançılıq ideologiyasının əhatə dairəsini sərhədsiz edir. Azərbaycandan kənarda yaşayan soydaşlarımızla yanaşı, milliyyətindən asılı olmayaraq, Azərbaycanın müstəqilliyinə, birliyinə və hüquqi, demokratik dövlət kimi inkişafına xidmət edən hər bir kəs azərbaycançılıq ideologiyasının daşıyıcısıdır. Azərbaycançılıq milli məsuliyyəti də özündə ehtiva edir. Bu məqamda, vurğulamaq yerinə düşər ki, azərbaycançılıq ideologiyası geniş əhatə dairəsi ilə yanaşı, konkret məqsədlər də daşıyır. Bu ideologiya Azərbaycan Respublikasında azad vətəndaş cəmiyyətinin inkişafına və güclü dövlət quruculuğuna xidmət edir. Məlumdur ki, müasir dövrdə qloballaşmanın bir sıra inkişaf göstəriciləri milli mənsubluğa da təsir göstərir. Çağdaş zamanda milli ideologiya ilə ümumbəşəri dəyərlərin ahəngina nail olmaq, qloballaşma prosesinə öz milli-mənəvi irsi ilə qoşulmaq hər bir xalq üçün böyük önəm daşıyır. Azərbaycançılıq ideyası bu çağırışlara cavab verir, milli mənsubluğun müdafiəsi ilə yanaşı, ümumbəşəri dəyərləri də özündə ehtiva edir”.

**Azərbaycançılıq ideyasının birləşdirici dəyər olması ilə bağlı məqama xüsusi diqqət edən Sosial Tədqiqatlar Mərkəzinin Daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi, siyasi şərhçi İlyas Hüseynov ”Şərq”ə açıqlamasında qeyd edib ki, 44 günlük Vətən savaşında Azərbaycan xalqını bir araya gətirən də məhz azərbaycançılıq ideologiyası oldu:**

”2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində azərbaycançılıq ideologiyasının milli birliyimizi necə qüvvətləndirdiyinin biz canlı şahidi olduq. Dini mənsubiyyətindən, irqindən, milliyyətindən asılı olmayaraq hər kəs silaha sarıldı və Ali Baş Komandanımız İlham Əliyevin ətrafında sıx birləşərək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mübarizəyə qalxdı.

44 günlük Vətən müharibəsi dövlətimizin düşmən üzərindəki qələbəsini təmin etməklə yanaşı, azərbaycançılıq ideyasının, bu ideyanın əsas tərkib hissələrindən biri olan multikulturizm dəyərinin inkişafına da töhfə verdi. Müharibə bir daha sübut etdi ki, ölkəmizdə bütün xalqların səmimi, tarixi və qırılmaz birliyi mövcuddur”.

**Politoloq hesab edir ki, çoxları multikulturalizmin sonunun çatdığını bildirsələr də, Azərbaycan öz siyasəti ilə getdi və Azərbaycanın yerləşdiyi geosiyasi məkan və ölkəmizdəki etnik qruplar istiqamətində aparılan siyasət dünyada nümunə kimi göstərilir:**

”Azərbaycanın multikulturalizm modeli haqqında dünyanın aparıcı universitetlərində mühazirələr oxunur. Bu da ölkəmizin azərbaycançılıq ideologiyasına nə qədər sadiqliyini nümayiş etdirir. Düşünürəm ki, bu, ən unikal modeldir. Buna qədər irəli sürülən hər hansısa yanaşmalar çox qüsurlu olub. Bu da ölkəmizdə narazılığın yaranmasına səbəb olmuşdur. Həm torpaq itkisi də bu və ya digər formada həm də ölkədə aparılan doğru siyasətin olmaması, hakimiyyətin səriştəsizliyi və ordumuzun təkmil şəkildə formalaşmaması ilə bağlı idi. Lakin düşünürəm ki, yeni reallıqlarda multikulturalizm modelinin inkişaf etdirilməsi, azərbaycançılıq ideologiyası siyasətinin davam etdirilməsi mühüm aktuallıq kəsb edir. Azərbaycan nəinki ölkə daxilində azərbaycançılıq siyasətinə diqqət yetirir, eyni zamanda sivilizasiyalararası dialoqun qurulmasında da təşəbbüslərlə çıxış edir. Azərbaycanda BMT-nin sivilizasiyalararası dialoqunun keçirilməsi, Bakı forumlarının, humanitar forumların həyata keçirilməsi bu məsələ ilə bağlı olan bütün mütəxəssislərin dialoq platformasına çevrilir.

**"Azərbaycan nəinki ölkə daxilində azərbaycançılıq siyasətinə diqqət yetirir, eyni zamanda sivilizasiyalararası dialoqun qurulmasında da təşəbbüslərlə çıxış edir"**

Dünya azərbaycanlılarının COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar yaydığı bəyanatı xatırladan İ.Hüseynov deyib ki, xaricdə yaşayan azərbaycanlılar da ölkəmizdə dövlət səviyyəsində həyata keçirilən ekoloji siyasəti, qlobal ekoloji böhran şəraitinin yaratdığı problemlərin aradan qaldırılması istiqamətində Azərbaycanın atdığı mühüm addımları və səmərəli fəaliyyətini təqdir edir. Xaricdə yaşayan həmyerlilərimiz 11-22 noyabr 2024-cü il tarixində Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsini olduqca vacib saydıqlarını və bu tədbirin dünyada ətraf mühitin qorunmasına mühüm töhfələr verəcəyinə inandıqlarını bəyan etmişdilər: ”Zənnimcə, Azərbaycan sivilizasiya və mədəniyyət məkanı kimi COP29-da özünü yüksək səviyyədə doğrulda bildi. Bir daha dünyaya sübut elədik ki, dövlətimizin sivilliyi və mədəniyyəti dünya miqyasında məsuliyyətli tədbirlər təşkil etməyə tam yetərlidir. Obrazlı desək, Azərbaycan sübut etdi ki, sivillik və mədəniyyətlilik aspektlərində də qitələr arasında vacib körpü rolunu oynaya bilər. COP29-dan çıxarıla biləcək ilk əhəmiyyətli nəticələrdən biri bundan ibarətdir”.

**Şəymən Bayramova**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Universitetlərin yaxınlığında qumarxanalar artır

## Nəinki tələbələr, məktəbli uşaqlar da mərc oyunlarına girişir

**Gənclər arasında mərc oyunlarının geniş yayılması artıq ciddi sosial və psixoloji problemə çevrilib. Universitetlərin yaxınlığında yerləşən mərc oyunu mərkəzləri bu problemi daha da dərinləşdirir. Hər gün borc içində batan, gələcəyini itirmək təhlükəsi ilə üzləşən tələbələrin sayı artır.**



**Əhməd Qəşəmoğlu: "Dəfələrlə diqqət etmişəm və görmüşəm ki, bu zallarda yaşı 18-dən aşağı olan xeyli məktəbli olur"**

*Təhsil eksperti Kamran Əsədovun ”Şərq”ə açıqlamasına görə, asan qazanc illüziyası gənclərin təhsilinə, psixoloji sağlamlığına və ailə münasibətlərinə böyük zərbə vurur:*

”Mərc oyunları yalnız maliyyə itkiləri ilə məhdudlaşmır. Bu vərdiş tələbələrin diqqətini dərslərdən yayındırır, onları psixoloji və emosional stresə salır, hətta bəzən cinayətə və ya intihara aparan yolları açır. Bu mərkəzlərin universitetlərin yaxınlığında yerləşməsi isə tələbələri bu təhlükəyə daha asan hədəf edir.

Universitetlər və dövlət orqanları bu problemin həlli üçün dərhal tədbirlər görməlidir. Mərc oyunu mərkəzlərinin universitetlərdən uzaqlaşdırılması, tələbələr üçün maliyyə maarifləndirilməsi proqramlarının keçirilməsi və alternativ idman və mədəni fəaliyyətlərə şərait yaradılması vacibdir. Valideynlər və müəllimlər də bu məsələdə şagirdləri maarifləndirməli və diqqətli olmalıdır. Unutmayaq, tələbələrin həyatını mərc oyunlarının təlsindən xilas etmək yalnız fərdi məsələ deyil, cəmiyyətin inkişafı üçün zəruri bir addımdır. Bu gün tələbələrimizi qorumaq üçün hərəkət etməsək, sabah onların itirilmiş həyatına şahid olmaq məcburiyyətində qala bilərik”.

**Sosioloq, professor Əhməd Qəşəmoğlu isə ”Şərq”ə deyib ki, nəinki tələbələr, hətta məktəbli uşaqlar da bu cür oyunlara aludə olurlar:**

”Dəfələrlə mərc oyunlarının oynanıldığı zalların qarşısından keçəndə diqqət etmişəm və görmüşəm ki, bu zallarda yaşı 18-dən aşağı olan xeyli məktəbli olur. Əslinə qalsa, lap əvvəllərdən mərc oyunlarının adı qumardır. Qumar oyunları isə həm islamda haram sayılır, həm də elmi olaraq məlumdur ki, şəxsiyyətin aşınmasına ciddi təsir edir. Tarix də göstərir ki, qumar oyunu hər kəsin həyatında xeyli sosial-psixoloji problemlər yaradır. SSRİ dövründə belə oyunlar narkotika kimi qadağan olunmuşdu.

Belə oyunların keçirildiyi zallara gedən gənclərin halını özünüz təsəvvür edin. Onların tək özləri mənəvi aşınmaya məruz qalmır, həm də oxuduqları təhsil müəssisəsində qeyri-sağlam mühit yaranmasına təsir edirlər. Gəncləri, uşaqları belə zallara şirnikləndirənlərin, belə zalları işlədənlərin marağı pul qazanmaqdır. Bu sahəyə nəzarət gücləndirilməlidir. Xüsusən də, KİV bu məsələyə diqqəti artırsa, daha yaxşı olar. Tələbələrin təhsil alıb, şəxsiyyət kimi yetişmələri gərəkdiyi halda onların mərc oyunları məntəqələrində olmaları böyük təhlükədir”.

**Şəymən**



# Qərb yeni planını işə salıb

## Azərbaycanın əleyhinə olan güclər regionda pozuculuq fəaliyyəti dəstəkləyir

**Paşinyanın reytinqi getdikcə aşağı düşür və bunun qarşısını almaq üçün onun yeniliyə ehtiyacı var. Ermənistan hakimiyyəti bu yeniliyi hərbi əməliyyatlarda və Azərbaycan üzərində kiçik də olsa, qələbə qazanmaqda görür.**

Digər tərəfdən, Ermənistanın arxasında duran Fransa, həmçinin Avropa İttifaqı aydın görürlər ki, Ukrayna cəbhəsində istədiklərinə nail ola bilmirlər, vəziyyət günü-gündən pisləşir, Rusiya irəliləyir. Buna görə də onlar Rusiyanın diqqətini başqa səmtə yönəltmək və onun sərhədlərinə yaxın yeni münaqişə ocağı yaratmaqla qüvvəsini bölməyə çalışırlar. Yeni Ermənistanın yeni müharibə avantürası Qərbin növbəti planıdır. Çünki burada Ermənistan hakimiyyəti ilə Qərbin maraqları üst-üstə düşür. Fransanın Ermənistanı silahlandırması, Hindistandan silah alınması, Yunanıstanın S300 raket komplekslərini verməsi rəsmi İrəvanın növbəti müharibəyə hazırlaşmasından xəbər verir.

**Orta Doğu Araşdırmalar Mərkəzinin sədri, politoloq Sədrəddin Soltan ”Şərq”ə bildirib ki, Yunanıstan-Ermənistan və Yunanıstan-Yunan Kipri arasında hərbi sahədə əməkdaşlığa dair anlaşma mövcuddur:**

”Bu razılaşmaya uyğun olaraq Yunanıstan keçmiş sovet silahlarını Ermənistana satır. Həm Fransa, həm də Yunanıstanın türklərə qarşı ənənəvi düşmənçiliyi var. Hər iki tərəf Ermənistanı silahlandırmaqla ənənəvi hikkəsini təmin edir və pul qazanırlar. Rusiyanın bu məsələdə Ermənistana sanksiya tətbiq etməsi mümkün olmayacaq. Çünki Ermənistanın silahlanmasına qarşı olan heç bir qətnamə yoxdur. Rusiya sadəcə olaraq sözügedən məsələdə müəyyən embarqolar qoya bilər. Məsələn, Yunanıstana silah alverində məhdudiyyətlər qoyula bilər ki, bu silah Ermənistana satılmasın. Yunanıstanın Ermənistana silah satması revanşist, təcavüzkar dövlətin yenidən regionda pozuculuq fəaliyyətinin dəstəklənməsidir”.

**Şahanə Ziyad**

# İnsan təxəyyülünün məhsulunu heç nə əvəz edə bilməz

## “Süni intellekt istifadəçilərinə elə gəlir ki, yeni Amerika kəşf ediblər”





**Süni intellekt son zamanlar həm dünyada, həm də ölkəmizdə müzakirə olunmağa başlayıb. Süni intellekt; insan davranışları, rəqəmsal məntiq, hərəkət, nitq və səs qavrayışı kimi bir çox qabiliyyətə sahib bir proqram və aparat sistemidir.**

Süni intellektin bir çox sahəni ələ keçirdiyinin şahidi oluruq. Bunu kino sahəsində də görürük. Vaxt keçdikcə süni intellektin bütün sahələrdə vəziyyətə hakim olacağı qənaəti yaradır. Süni intellekt hər bir şeyi əvəz etsə insanların işsiz qalma ehtimalı artır.

**İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti Bəhruz Əliyev ”Şərq”ə bildirib ki, süni intellekt (SI) son illərdə həyatımızın bir çox sahəsinə nüfuz edib və bu tendensiyanın davam edəcəyi gözlənilir:**

”Süni intellekt kino sahəsində, ssenari yazılmasında, istehsal proseslərində, şəkil və video emalı kimi tətbiqlərdə qarşımıza çıxır. Bu gün film və seriallarda realistik vizual effektlərin yaradılmasında, avtomatik səs və ssenari yazılmasında da istifadə olunur. Süni intellekt, insan zəkasının simuliyasiya edən, insan kimi davranan və insana bənzər funksiyaları təqlid etməyə çalışan sistem və texnologiyadır. Təbii dil emalı, məntiqi təhlil, şəkil tanıma, maşın öyrənmə (ML), dərin öyrənmə (DL) kimi sahələrdən istifadə edir.

**Ekspert süni intellektin müsbət tərəflərini sadalayıb:**

”Xüsusilə təkrarlanan və monoton işlərdə iş səmərəliliyini artırır. Böyük verilənlər bazasından analizlər edərək daha doğru proqnozlar və qərarlar verir. Tibb, avtomobil sənayesi, təhsil, nəqliyyat kimi sahələrdə innovativ həllər təqdim edir. Kino və musiqi sahələrində yeni üsullar və təcrübələr təqdim edir”.

**Bəhruz Əliyev qeyd edir ki, süni intellektin mənfi tərəfləri da olmamış deyil:**

”Süni intellektdə qərarlarının necə verildiyi, şəxsi məlumatların necə qorunduğu və buna oxşar məsələlər etik narahatlıqlara yol aça bilər. Bəzi sahələrdə isə insanların yaradıcı və fərdi yanaşmasını əvəz etməsi də mümkündür.İnsanlar həyatlarını tamamilə süni intellektə etibar etməyə başladıqda, bu asılılıq sosial və psixoloji problemlər yaradacaq”.

İşsizlik məsələsi və süni intellektin insanı əvəzləməsi barədə danışan ekspert vurğulayır ki, süni intellektin inkişafı ilə bir çox işin avtomatlaşdırılması mümkündür: ”Məsələn, sürücüsüz avtomobillər, robotlar, avtomatlaşdırılmış müştəri xidmətləri və s. Əgər bir çox sənayedə işçilər yerinə SI texnologiyaları istifadə olunarsa, bu, müəyyən sahələrdə lokal olaraq, işsizlik yaratmaq potensialına malikdir. Xüsusilə, təkrarlanan və mexaniki işlərdə çalışan insanlar bu dəyişikliklərdən təsirlənə bilər. Bununla belə, yeni texnologiyalar da yeni iş yerləri yaradacaq. Məsələn, süni intellekt sistemlərinin inkişafı üçün daha çox proqramçı, məlumat analitikləri və mühəndislər tələb oluna bilər.

Misal ilə izah edək: 100 il əvvəl at sürürdük, ona görə də nalbəndlər vardı. Sonra maşın sürməyə başladıq. Tədricən nalbənd fəaliyyəti öz yerini maşın ustaları ilə dəyişdi. Həm də çoxşaxəli maşın ustalığı yarandı. Maşın ustası olaraq, nalbəndlərdən daha çox insan üçün iş yeri oldu. Bu, birdən yox, tədricən baş verdi. Heç bir nalbəndin maşın ustalarına etirazı olmadı, maşın ustalarına görə nalbəndlər də ac qalmadı. Daha çox iş yeri yarandı. Bu, tədrici prosesdir və öz üzərində inkişafı üçün çalışmayan hər kəs mövqeyini itirəcəkdir. Bu məsələlər barədə kifayət qədər tədqiqatlar da mövcuddur. Bununla yanaşı, insanlar yalnız texnoloji tərəfdən deyil, həm də emosional, yaradıcı və strateji sahələrdə üstünlük təşkil etməyə davam edəcəklər. Bu səbəbdən SI-nin tamamilə hər bir şeyi əvəz etməsi mümkün olmasa da, əmək bazarındakı bəzi dəyişikliklərə səbəb olacağı qaçılmazdır”.

**Ekspertin sözlərinə görə, süni intellektin gələcəkdə daha da geniş sahələrdə istifadəsi gözlənilir:**

”Süni intellekt tibbi müalicə, səhiyyə xidmətlərinin optimallaşdırılması, erkən xəstəlik diaqnozu üçün daha geniş istifadə ediləcək. Sürücüsüz avtomobillərin daha geniş yayılması, məşhurların və personajların təqlidini edən süni intellekt modelləri ilə yeni film və musiqilərin yaradılması kimi hadisələr var və genişlənəcəyini proqnozlaşdırmaq mümkündür. Süni intellektin həyatımıza təsiri genişlənəcək və buna uyğun olaraq həm müsbət, həm də mənfi təsirlərin tarazlaşdırılması vacib olacaq. Əsas nəzərdən qaçmaması gərəkli olan məsələ süni intellektin etik istifadəsini dünya birliyi olaraq, ortaya qoymaq və icbari hala gətirməkdir. Ümid edirəm dünya bu məsələdə gecikməyəcək”.

**Azərbaycan Dövlət Film Fondunun şöbə müdiri Rəşad Qasımov isə bildirib ki, süni intellektə ”Gələcəkdə hansı sənət sahiblərini süni intellekt əvəz edə bilməyəcək?” sualını versəniz, cavabı ”Mədəniyyət və incəsənət sahəsində çalışan yaradıcı insanlar: rəssamlar, rejissorlar, bəstəkarlar və s.” olacaq:**

”Bizdə isə süni intellektin imkanlarını öyrənən hər kəs onu ilk fürsətdə bu sahələrdə tətbiq edir və ya bu barədə düşünür. Deməli, mədəniyyət və incəsənət sahəsi ancaq onu sevən, könül verən, əmək sərf edən insanlar üçündür. Süni intellektin bizə verdiyi cavablar və göstərdiyi yol təxəyyül məhsulu deyil. Yəni insan mütaliəsini genişləndirəndə, yaradıcılıq fəaliyyətini şaxələndirəndə onun fantaziyası formalaşır. Ola bilər ki, süni intellekt müxtəlif ideyalar və yollar göstərsin. Nəzərə almaq lazımdır ki, bunun hər biri işlənilmiş versiyalar üzərindən gedir. Hərdən süni intellekt istifadəçilərinə elə gəlir ki, yeni Amerika kəşf ediblər. Xeyr, bu, elə deyil. Ona görə də insan təxəyyülünün məhsulunu heç nə əvəz edə bilməz. Süni intellekt sadəcə olaraq müəyyən bir qlobal sistemin hansısa fokuslandığı sahəyə istiqamətlənmiş”.

Kinoşünas, Əməkdar incəsənət xadimi Ayaz Salayev söyləyib ki, canlı insan olmasa, sənət əsəri yarana bilməz: ”Çünki sənət əsəri insanın keçdiyi şəxsi təcrübədən, yəni yaşadığı həyatın təcrübəsi nəticəsində yaranır. O olmayanda süni bir şey alınır. Lakin əsl sənət əsərini süni intellekt yarada bilməz. Sənət əsəri yaratmaq üçün insanın xəstəliyi, bədəni, yaşadığı və keçdiyi həyat canlanmalıdır”.

**Fidan Həmişəyeva**



# Hər kəs təbiəti öz mənzili kimi qorumalıdır

## Təbiətə zərər verməyən vasitələr hazırlayanlara təşəkkür etmək lazımdır

**Kanadanın Vaterloo Universitetinin tədqiqatçıları qida tullantılarını bioparçalanan plastikə çevirməyə imkan verən inqilabi texnologiya hazırlayıblar.**

Oxu.Az-ın məlumatına görə, bu barədə nüfuzlu ”ACS ES&T Engineering” jurnalında dərc olunmuş materialda qeyd edilib.

Yeni texnologiya yumşaq və elastik plastik istehsalını mümkün edir. Bu isə qida örtüklərinin hazırlanması, dərman maddələrinin çatdırılması, zədələnmiş toxumaların və orqanların bərpası kimi bir çox sahədə istifadə üçün böyük perspektivlər açır.

Tədqiqatçılar PHA tipli plastik istehsalında ”Pseudomonas putida” adlı torpaq bakteriyalarından istifadə ediblər. Onların sözlərinə görə, yeni material kompost çuxurlarında, torpaqda, şirin və ya duzlu suda təbii olaraq zərərsiz yan məhsullara parçalana bilir.

Hazırda elmi qrup bu bioplastiklərin iqtisadi cəhətdən daha sərfəli üsulla istehsalını araşdırır.

”Hazırda bakterial hüceyrələrin parçalanması və polimerin çıxarılması prosesi baha başa gəlir. Komanda bütün istehsal prosesini böyükmiqyaslı kommersiyalaşdırma üçün daha effektiv və qənaətcil ekstraksiya metodu üzərində işləyir” , - deyə tədqiqatın müəllifləri bildiriblər.

Həqiqətən də bunun ekologiyamıza müsbət təsiri olacaqmı? Təbiətə zərər verməyən başqa hansı işlər görülür? Digər tərəfdən də insanlar təbiəti necə qorumalıdırlar?

**Suallarımızı cavablandıran ekoloq Qorxmaz İbrahimli ”Şərq”ə bildirib ki, təbiətə zərər verməyən vasitələr hazırlayanlara təşəkkür etmək lazımdır:**

”Azərbaycanda bu texnologiyanın nə dərəcədə tətbiq olunacağı çox maraqlıdır. Burada əsas məsələ hansı plastikin hazırlanacağıdır. Çünki söhbət texnologiyanın geniş tətbiqindən gedir. Təbiətə müsbət təsir edən texnologiya olarsa, əlbəttə, çox yaxşı olacaq. İnsanlar plastikləri təbiətə, dənizə, quruya atırlar. Bunlar tez çürüyüb və zərər vermirsə, ekologiya üçün xoş haldır. Yeni hazırlanmış plastiklər dənizə atılmalı və balıqlara zərər verib-verməyəcəyi sınaqdan keçməlidir. Bildiyiniz kimi, dünyada elektrik mühərrikli avtomobillərin istehsalı genişlənir. Bu texnologiya vasitəsilə atıq qazlar atmosferi çirkləndirmir. Amma bu, yetərli deyil. Sözügedən avtomobillərin istehsalında yenə həmin karbon qazı, metan qazı, karbon dioksid atmosferə gedir. Ona görə də bunu azaldan texnologiya və filtrlərin üzərində işlər görülməlidir. Ümumiyyətlə, insanlar maariflənməli, təhsilli olmalı və təbiətə duyarlı olmalıdırlar ki, təbiəti qorusunlar. Yəni mən təbiəti mənzilim kimi qorusam, təbiət çirklənməz. Lakin biz bunu etmirik. Bunun həlli yolu isə ancaq milli ibtidai təhsil haqqında qanundur. Yəni milli mütəxəssislərin hazırlığı ilə üç yaşdan beşinci sinfi bitirənə qədər uşaqlar bu yöndə çevrə, millət və dövlətlə bağlı gerçəkləri mənimsəməlidirlər ki, ölkəmiz, dövlətimiz 1000 illərlə yaşaya bilsin”.

**Fidan Həmişəyeva**




# Ağadadaş Ağayev məhkəmədə özünü təqsirli bilməyib

## O, ifadə verməyə hazır olmadığını deyib

**Xalq artisti Ağadadaş Ağayevin ittiham olunduğu cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Dünən Binəqədi rayon Məhkəməsində hakim Vüsal Tağıyevin sədrliyi ilə keçirilən prosesdə anket məlumatları dəqiqləşdirilib.

Təqsirləndirilən Ağadadaş Ağayev vəkillərin prosesə gecikməsinə görə məhkəməyə etiraz edib. Daha sonra prokuror ittiham aktını elan edib. Xalq artisti özünü təqsirli bilməyib, ittiham aktını məntiqsiz adlandırıb və ifadə verməyə hazır olmadığını bildirib. Onun vəkili Asim Abbasov müvəkkilinin ifadə verməyə hazır olmadığını deyib. O, öncə zərərçəkən və şahidlərin, daha sonra Ağadadaş Ağayevin ifadə verməyini təklif edib və məhkəmədən vaxt istəyib. Dövlət ittihamçısı və müdafiə tərəfi buna etiraz edib. Məhkəmə yerində müşavirə edərək təklifi qəbul etməyib. Məhkəmə prosesi dekabrın 3-də davam etdiriləcək.(apa)

*Qeyd edək ki, iş üzrə zərərçəkən kimi ”Medera” hospitalın xadiməsi Nəzakət Paşayeva və mühafizəçi Nurəddin Cəlilov tanınıb. A.Ağayev Cinayət Məcəlləsinin 221.3-cü maddəsi (Xuliqanlıq, silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə) üzrə təqsirli bilinir.*

*Hadisə bu il iyulun 23-də Binəqədi rayonu ərazisində baş verib. Xalq artisti Ağadadaş Ağayevlə ”Medera Hospital”ın mühafizəçisi Nurəddin Cəlilov arasında insident baş verib. Ağadadaş Ağayev mübahisə etdiyi mühafizəçiyə balta atıb, balta klinikada çalışan N. Paşayevaya dəyərək xəsarət yetirib. Mühafizəçi isə Xalq artistini döyüb. Faktla bağlı cinayət işi başlanıb. A.Ağayev və Nurəddin Cəlilov cinayət məsuliyyətinə cəlb edilib. Sonradan N.Cəlilovun işi ayrıca icraata verilib. Xalq artisti Ağadadaş Ağayev isə ”Medera Hospital”a qarşı mülki iddia qaldırıb.*

*İşə Binəqədi Rayon Məhkəməsində baxılır. A.Ağayev ”Medera Hospital”dan mənəvi zərərin ödənilməsini tələb edir. Öz növbəsində, ”Medera Hospital”ın rəhbəri Qaraxan Əliyev də Ağadadaş Ağayevə qarşı iddia qaldırıb.*

# Cəmiyyətin oğru xanımları...

## Tədbirlər zamanı masadakıları çantaya doldurmaq dəyərlərə və özünə hörmətsizlikdir

**”Bəzən tədbirlərin çay-nahar fasiləsi zamanı şirniyyat və ya yeməyi çantasına dolduran xanımlar görürəm və bu, məni çox incidir. Düşünürəm ki, sağlam düşüncəsi, xarakteri, dünyagörüşü, ən əsası, dəyərləri olan insan bunu etməz. Bu, ilk növbədə, özünə hörmətsizlikdir. Mənə görə, bu da oğurluqdur və bir oğru, cəmiyyətin tərbiyələnməsində rol ala bilməz”. ”Şərq” xəbər verir ki, bu barədə Qadın və Uşaqların Təhsilinə Dəstək İctimai Birliyinin rəhbəri Sevinc Fədai sosial media hesabında yazıb.**



**"Bir insanın sadə bir şirniyyatı oğurlaması, onun daxili dünyasında etik və əxlaqi qaydalara qarşı bir inamsızlıq yaradır"**

QHT nümayəndəsinin sözlərinə görə, oğru, dilənçi qadın və analar ailənin, cəmiyyətin sütunu ola bilməz: ”Oğru, oğru yetişdirər, dilənçi yetişdirər. Bir tikə çörək, beş dəqiqəlik zövq üçün başqasının mənafeyini tapdalayar, haqqını yeyər. Ağrılı və utandırıcı da olsa, bu həqiqəti dilə gətirməliyik ki, fərqindəlik, müsbət dəyişiklik yarada bilək. Çünki bu, yalnız fiziki oğurluq deyil, həm də ruhi, mənəvi oğurluqla bağlıdır. Hər bir insan öz davranışlarına cavabdehdir və bu cür kiçik, amma vacib məsələlərə diqqət yetirmək, hər birimizin daha sağlam və dürüst bir cəmiyyət qurma yolunda atdığı bir addım olacaqdır”.

Oğurluğun cəmiyyətə təsirinə toxunan S.Fədai qeyd edib ki, cəmiyyətdə müəyyən davranışlar zamanla təkrarlanar və bəzi insanlar üçün normal hala gələ bilər. Şirniyyat və yeməkləri çantalarına doldurmaqla məşğul olan şəxslər, heç də qida ehtiyacı olanlar deyil, eyni zamanda bu davranışları fərqində olmadan mənimsəyənlərdir: ”Bu, ilk baxışda sadə bir davranış kimi görünsə də, cəmiyyətdəki böyük bir psixoloji və sosial mənzərənin əksidir.

Çox zaman bu cür hərəkətlər sadəcə acgözlük və ya diqqətsizlik kimi izah edilir. Lakin əslində, bu davranışlar cəmiyyətdəki əxlaqi dəyərlərin zəifləməsinin və insanın öz mənafeyini başqalarının haqqı üzərində qurmağa başlamasının bir əlamətidir. Bu cür ”kiçik oğurluq” hərəkətləri zamanla böyük problemlərə yol aça bilər. Sosial və mədəni quruluşda insanlar arasında qarşılıqlı hörmət və etibar insanları bir arada tutan mühüm amillərdir. Bu dəyərlər zəiflədikdə, hər bir fərd öz mənfəətini ön plana çəkərək başqalarının haqqını tapdalayır.

Bu tip davranışlar yalnız şəxsi həyatımızda deyil, daha geniş şəkildə cəmiyyətə və gələcək nəsillərə də mənfi təsir göstərir. Bir insanın sadə bir şirniyyatı oğurlaması, onun daxili dünyasında etik və əxlaqi qaydalara qarşı bir inamsızlıq yaradır. Uşaqların belə bir mühitdə böyüməsi, onlarda doğru və yanlış arasındakı sərhədin bulanıqlaşmasına səbəb ola bilər.

Bir valideyn olaraq bu cür davranışları müşahidə edən və buna göz yuman bir şəxs, gələcəkdə öz uşaqlarına düzgün əxlaq dərsi verməkdə çətinlik çəkəcək. Bir cəmiyyətin sağlam olması, hər bir fərdin düzgün dəyərlərlə böyüdüyü bir mühitdən asılıdır. Oğurluqla məşğul olan və ya başqasının haqqını yeməkdən çəkinməyən bir insan cəmiyyətə doğru və ədalətli bir şəkildə xidmət edə bilməz. Çünki o, həqiqi mənada xalqını düşünə bilməz, öz mənafeyini başqalarının haqqı üzərində qurmağa davam edər. Bu, həm cəmiyyətin, həm də ailənin sağlamlığını təhdid edən təhlükəli bir tendensiyadır”.

**Şəymən**

Təsisçi: “Şərq Media Qrup” MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Şəhanə Ziyad, Nəzrin Vüqarqızı

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap olunur

“Şərq Media Qrup” MMC-yə daxildir:
“Şərq” qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 2775



## Həyatının şokunu yaşadı

Heç evlənməmişdi, adama boşanma iddiası açdılar

**İzmirdə qeyri-adi maraqlı hadisə yaşanıb. Bayraklıda yaşayan 32 yaşlı Aytuğ Arduç boşanma xəbəri alanda həyatının şokunu yaşayıb.**

"Şərq" xəbər verir ki, ömründə heç vaxt evli olmayan Arduç aldığı bildiriş səbəbindən sevgilisi ilə də mübahisə edib.

Daha əvvəl heç evli olmayan Arduç, Adıyaman Gölbaşı 2-ci Mülki Məhkəmə tərəfindən adına göndərilən boşanma bildirişini görəndə təəccüblənib.

Arduç sonradan bu məktubla bağlı vəkilindən soruşduqda bildirişdə hərf səhvi olduğunu öyrənib. Lakin baş verənləri sevgilisinə anlatmağa çalışarkən mübahisə yaranıb.

Arduç, "Sevgilim var, bunu ona necə izah edəcəyimi də düşündüm. Əvvəlcə mənə əsəbiləşdi, hətta mübahisə etdik. "Mənə boşanma müraciəti gəldi, həm də mübahisəli" dedim. Sonra işin içində bir yanlışlıq olduğuna o da inandı" deyə bildirib.

Günlərdir yaşadığı sürprizdən sovuşa bilmədiyini deyən Arduç əlavə edib: "İndi kiminlə boşanacağımı da bilmirəm. Mən həyatımda heç vaxt evlənməmiş biriyəm. Bunu görəndə vəkilimdən də soruşdum. "Yazışmaları hazırlayan məmur səhv etmiş ola bilər" dedi. Həyatımda heç vaxt ailə qurmamışam. İlk dəfədir ki, belə bir şey eşidirəm və görürəm, çox təəccüblənirəm".

**Turan**

## Beş gün sonra qara xəbər

Balaca Abidin xəstəxanada öldü



**Qaziantepin Nurdağı rayonunda evdə çıxan yanğın zamanı tüstüdən təsirlənən 3 yaşlı Abidin Kuşdan kədərli xəbər gəlib.**

O, müalicə aldığı xəstəxanada dünyasını dəyişib.

"Şərq" xəbər verir ki, noyabrın 23-də günorta saatlarında Nurdağı rayonunun Kurudere məhəlləsində Kuş ailəsinin yaşadığı evdə elektrik cərəyanından yanğın baş verib.

Yanğında tüstüdən zərər çəkən Arzu Kuş və oğlu Abidin Kuş sağlamlıq qrupları tərəfindən xəstəxanaya aparılıb.

Təcili xidmətdə edilən ilk müdaxilənin ardından Abidin Kuş Qaziantep Şəhər xəstəxanasına sövq edilib.

Reanimasiya şöbəsində müalicə alan Abidin Kuş dünən səhər saatlarında dünyasını dəyişib.

Kuşun nəşi yarıldıqdan sonra dəfn olunmaq üçün yaxınlarına təhvil verilib.

**Turan**

## Şəhər qarın altında qaldı

Vətəndaşlar avtomobillərini çıxarmağa çalışır



**Bayburt son illərin ən güclü qarlı havasını yaşayır. Qarın qalınlığı 80 santimetrə çatıb. Bələdiyyə qruplarının yol təmizləmə işləri davam edir.**

"Şərq" xəbər verir ki, şiddətli qar yağışı demək olar ki, həyata mənfi təsir edib. Şəhərdə yollar bağlanıb. Vətəndaşlar öz avtomobillərini qar yığınlarından çıxarmağa çalışıblar.

3-4 günlük fasilədən sonra avtomobillərini işə salan vətəndaşlar da təmizlik işlərində qrupları müşayiət edib.

Şəhərə son illərin ən güclü qar yağdığını bildirən İsmail Bayburtlu deyib: "Uzun illərdir Bayburtda belə qar yağışı görməmişdik. Ölkəmizə sonuncu dəfə belə qar 6-7 il əvvəl yağmışdı. Hər halda bura qış ölkəsidir. Biz maşınlarımızı qar yığınından çıxarmağa çalışırıq. İşə getmək çətindir. Şərtlər bəllidir".

**Turan**

## "Çoxlu mesajlar aldım"

Demet Özdemir qırmızı paltarı ilə heyran etdi!



**Gözəl aktrisa Demet Özdemir sosial şəbəkədəki paylaşımları ilə gündəm olmağı bacarır.**

Sherg.az türk mediasına istinadən xəbər verir ki, dünən axşam DIAFA-nın mükafatlandırma mərasiminə qatılan Demet Özdemir 'Ən yaxşı beynəlxalq aktyor' mükafatını alıb. Məşhur aktrisa mükafatlandırma mərasimində qırmızı paltar seçib.

İnstaqram hesabında da paylaşım edən gözəl aktrisa minlərlə bəyənmə toplayıb. Mükafat mərasimində açıqlama verən Özdemir deyib: Burada sizinlə olmaq çox həyəcanlıdır. Adım açıqlanandan sonra çoxlu mesajlar aldım. Kilometrlərin sadəcə rəqəmlər olduğunu mənə başa saldınız.

**Fidan**







# Astma xəstələri üçün əla xəbər

50 ildən sonra ilk dəfə yeni müalicə kəşf edildi



**Astma xəstələri üçün yeni müalicə üsulunun kəşfi tibb sahəsində son 50 ilin ən böyük uğuru adlandırılıb. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, yeni üsul indiyədək tətbiq edilən müalicə metodlarının kökündən yanlış olduğunu göstərir. Yeni dərmanın klinik sınaqları göstərir ki, bu, ağır xəstəliyi olan insanların həyatı üçün təhlükə yaradan tənəffüs çətinliyinin müalicəsində ənənəvi üsullardan qat-qat effektivdir. Astma müalicəsində yeni inkişafın ümidverici olduğu bildirilir.**

Yeni dərman xəstəliyin ağır formasını yaşayan insanlarda həyati təhlükə yaradan tənəffüs çətinliklərinin müalicəsində ənənəvi steroid həblərdən daha təsirlidir. Monoklonal antikor xüsusi olaraq eozinofilik astma adlanan bir xəstəliyi olan insanların ağciyərlərinə nüfuz edən ağ qan hüceyrələrini hədəf alır və tənəffüs yollarının şişməsinə və bağlanmasına səbəb olur. Bu tip astma xəstəliyin bütün kəskin alovlanmalarının təxminən yarısını təşkil edir. Xroniki obstruktiv ağciyər xəstəliyinin (KOAH) bütün ağır alovlanmalarının üçdə birinin əsasında eyni bioloji mexanizm dayanır. Lakin İngiltərədə London Kral Kollecindəki tədqiqatçılar, hücum zamanı ağıllı dərman iynələri alan astma və ya KOAH xəstələrinin dörd həftə sonra xırıltı, nəfəs darlığı və digər simptomlardan daha az əziyyət çəkdiyini kəşf ediblər. "The Lancet Respiratory Medicine" jurnalında dərc edilən nəticələrə görə, onların həyat keyfiyyətində də əhəmiyyətli irəliləyiş var. Professor Mona Bafadhel deyib ki, bu, astma və KOAH xəstələri üçün "oyun qaydaları"nı dəyişdirə bilər: "Ümid edirik ki, bu tədqiqat gələcəkdə kəskinləşmələrin müalicə üsulunu dəyişdirəcək və nəticədə dünyada astma və KOAH ilə yaşayan bir milyarddan çox insanın sağlamlığını yaxşılaşdıracaq". Böyük Britaniyada hər gün orta hesabla dörd astma və 85 KOAH xəstəsi ölür. Steroid tabletləri onilliklər ərzində alovlanma zamanı müalicənin əsasını təşkil edərək, ağciyərlərdə iltihabı azaldır. Ancaq həmişə təsir etmədiyi üçün xəstələr dərmanı təkrar qəbul etməlidirlər ki, bu da onları yenidən xəstəxanaya yerləşdirmə və bəzən ölüm riski ilə üz-üzə qoyur. Daimi istifadə diabet və sümükləri zəifləmdən osteoporoz riskini də artırır. 36 yaşlı Şeraz Hüseyn 13 il əvvəl eozinofilik astma xəstəliyinə tutulub. Vəziyyəti nəzarətdən çıxıb və demək olar ki, hər gün astma tutmaları keçirməyə başlayıb. Lakin xəstəxanada tətbiq edilən yeni dərmanın vurulması onun xəstəliyini stabilləşdirməyə kömək edib. O, "Sky News"a bildirib ki, sağlamlığına və həyatda qalacağına inanmaqda çətinlik çəkib: "Mən elə bir vəziyyətə düşürdüm ki, heç bir şey məni sakitləşdirə bilmirdi. Həyatım boyu necə sağ qalacağam", deyə düşünürdüm. Alovlanmalar, sinə infeksiyaları, nəfəs darlığı yaşadım... Amma dərman qəbul edəndən bəri inanılmaz bir dəyişiklik, yüngüllük hiss edirəm". Yeni dərman eozinofilik astması olan insanlarda simptomları idarə etmək üçün daha aşağı dozada istifadə edilə bilər. Bununla belə, hücum zamanı daha yüksək dozada enjeksiyonun daha yaxşı nəticələrə səbəb olmasının tapılması vacibdir. İngiltərə Astma + Ağciyər xeyriyyə təşkilatından həkim Samanha Volker "bu, ağciyər xəstəlikləri olan insanlar üçün əla xəbərdir", deyib və əlavə edib: "Ancaq bunun 50 ildə ilk yeni müalicə olması dəhşətlidir və ağciyər sağlamlığı ilə bağlı araşdırmaların nə qədər az maliyyələşdirildiyini göstərir".

**Məlahət**



# 2025-ci il təkcə fəlakətlər ili olmayacaq

Həm də bəşəriyyət üçün oyanış və dirçəliş ili kimi yadda qalacaq

**16-cı əsrin məşhur görücüsü Nostradamusun peyğəmbərlikləri və sirli dördlükləri əsrlər boyu bəşəriyyəti valeh edən proqnozlarla doludur. Artıq 2025-ci il üçün şərh edilən öngörmələr insanlarda həm maraq, həm də narahatlıq yaradır. Bəs, Nostradamusun bu il üçün sözləri gələcəyimizə necə təsir edə bilər?**

"Şərq" xəbər verir ki, məşhur görücü Nostradamusun proqnozları sosial şəbəkə istifadəçiləri arasında maraq oyatmaqda davam edir. 16-cı əsrin məşhur görücüsü Nostradamus öz misralarında 2025-ci ilin bəşəriyyət üçün böyük transformasiya ili olacağını bildirmişdi. 2025-ci il bu proqnozların gerçəkləşib-gerçəkləşməyəcəyini görəcəyimiz il olacaq.

### İqlim böhranı və təbii fəlakətlər

Ehtimal olunur ki, Nostradamusun bəzi dördlükləri dünyanı yandıran temperaturlara və ekstremal hava hadisələrinə aiddir.

"Günəşdən gələn işıq dünyanı yandıracaq" kimi açıqlamalar iqlim böhranının 2025-ci ildə pik həddə çatacağı iddialarını gücləndirir. Alimlərin də bununla bağlı xəbərdarlıq etməsi öngörmələri daha da qorxulu edir. Digər diqqətçəkən proqnoz isə geosiyasi gərginliyin artması ilə bağlıdır.

Nostradamusun dördlüklərində şimal və cənub arasında qarşıdurmaların qeyd edilməsi resurs müharibələrinin gələcəyin ən böyük təhlükəsi ola biləcəyini göstərir.

Nostradamus "dəmir insanlar" və "kiçik qutular" kimi simvollarla süni intellekt və texnologiyanın gələcək təsirlərinə işarə edir. 2025-ci il bu transformasiyanın insan həyatını kökündən dəyişdirəcəyi il ola bilərmi?

### Göydən təhlükə

"Göydən od kürəsi düşəcək" kimi ifadələr ağla mümkün asteroid zərbəsi və ya böyük bir vulkan püskürməsi gətirir.

NASA-nın 2025-ci il üçün açıqladığı kosmos hadisələri bu cür proqnozlara marağın artmasına səbəb olur.

Bəzi şərhçilər iddia edirlər ki, Nostradamus 2025-ci ili təkcə fəlakətlər ili kimi deyil, həm də bəşəriyyət üçün oyanış və dirçəliş ili kimi görüb.

"Bəşəriyyət uzun bir yuxudan oyanacaq" misrası bu dəyişikliyin xəbərçisi ola bilər.

**Turan**

## 100 adamdan biri

Bir bədəndə iki immun sistem, iki DNA



**Model və musiqiçi Taylor Muhl qarın bölgəsindəki ləkədən xilas olmaq üçün həkimə gedib və müayinə zamanı gözlənilməz halla qarşılaşıb.**

"Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, T.Muhlun sadəcə adi bir ləkə olduğunu düşündüyü izlərin dünyaya gəlməyən əkiz tayına məxsus olduğu ortaya çıxıb. Aparılan testlər nəticəsində gənc qadının iki fərqli DNT ardıcıllığına sahib olduğu və onlardan birini vaxtilə anasının bətnində olarkən əkiz tayından aldığı müəyyən edilib. Dünyada cəmi 100 adamda görülən "Ximerizm" adlı genetik sindroma sahib olduğunu öyrənən Muhl, eyni zamanda bədənində fərqli hüceyrə quruluşuna malik əkizidir. Onun bədənində iki tərəfi ayıran gözlə görünən xətt keçir. Bir tərəfi bir qədər qaranlıqdır, ona görə də iki fərqli dəri tonu var. Bu vəziyyətlə bağlı Teylor Barcroft TV-yə özünü "öz əkizləri" kimi gördüyünü deyib: "Bir bədəndə iki genetik quruluş var. Bu, belə demək mümkünsə, eyni maşının kapotu altında tamamilə fərqli iki insanın olması kimidir. Mən böyüyəndə heç kim mənə ikinci rəngli dəri piqmentasiyası haqqında heç nə demədi, çünki heç kim həqiqətən nə baş verdiyini bilmirdi". Əslində, diaqnoz qoyulmazdan əvvəl bu çapıqların doğum ləkələri olduğu düşünülürdü. Yetkinlik yaşına çatdıqda, Teylorda bəzi qəribə xəstəliklər inkişaf etməyə başlayıb. Vəziyyətindən hələ də xəbərsiz olan Teylor bu problemlərin immun sisteminin zəif olmasından qaynaqlandığını düşünürdü. Daha sonra o, səhhətindəki problemlərin bədəninin bir yarısının digər yarısına hücum etməsi nəticəsində yarandığını öyrəndi. Məlum oldu ki, bu, iki DNT ardıcıllığını və iki texniki cəhətdən fərqli immun sistemini daşımasıdır. Teylor indi sağlamlığını sabit və aktiv saxlamaq üçün güclü probiotiklər və vitamin əlavələri qəbul edir. "Bütün bunları etsəm də, mən yenə də hər gün otoimmün problemlərə və qida həssaslığına dözürəm, buna görə də bu, emosional olaraq sinir bozucu və tükəndirici ola bilər". O, məşhur müğənni, bəstəkar, model və rəqqasədir. Teylorun İnstaqramda 25 000-ə yaxın izləyicisi var və müntəzəm olaraq mediada "Ximerizm" haqqında danışır.

**Məlahət**

## İkardi Vanda Naradan iki qat qisas aldı



**Mauro İkardinin Vanda Naradan ayrılmaq üçün tutduğu boşanma vəkili ilə sevgili olduğu iddia edilir.**

Offsideplus.az xəbər verir ki, bu barədə "Corriere dello Sport" məlumat yayıb.

Mənbəyə görə, ulduz futbolçu boşanma davasında ona kömək edən vəkil Anjela Burqosla sevgili olub.

*Qeyd edək ki, Anjela Burqos Kolumbiyada nüfuzlu hüquq firmasının sahibidir.*